Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 281 (8008) CÜMƏ AXŞAMI, 13 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# Dərin ehtiramla



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçir.**

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlət başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.













## Ulu öndərin əziz xatirəsi xaricdə də yad olunub

Azərbaycan xalqının ümummilli liderinin vəfatının 15-ci ildönümü ilə əlaqədar Ankaradakı Heydər Əliyev Parkında anım mərasimi təşkil olunub. Ulu öndərin parkdakı abidəsi önünə əklillər qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycandan və Türkiyədən olan rəsmi şəxslər, deputatlar, ziyalılar, qardaş ölkədə hərbi təhsil alan kursantlarımız , ictimaiyyətin nümayəndələri Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzüblər. Dahi şəxsiyyətin əziz xatirəsi dərin ehtiramla yad olunub.

* * *

Ulu öndər Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar İstanbulun Sarıyer rayonunda yerləşən Heydər Əliyev Parkında da anım tədbiri təşkil olunub. Ümummilli liderin abidəsi önünə əklil və gül dəstələri düzülüb. Azərbaycanın İstanbuldakı baş konsulluğunun kollektivi, bu şəhərdə fəaliyyət göstərən digər qurumlarımızın təmsilçiləri, diplomatlar, ziyalılar, QHT və KİV təmsilçiləri ulu öndərin xatirəsinə ehtiram göstəriblər. Sonra Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün abidəsi önünə də gül dəstələri qoyulub, xatirəsi yad olunub.

*Bax: səh. 4*

## Nüfuzlu beynəlxalq qurumlar Azərbaycanla əməkdaşlıqda maraqlıdır

### FAO ölkəmizi özünün etibarlı tərəfdaşı sayır

Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarından olan BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) 1945-ci ildə yaradılıb. Həmin il İkinci Dünya müharibəsi də başa çatmışdı. Bu müharibənin insanlara gətirdiyi bəlalardan biri ərzaq çatışmazlığı idi. Yaranan problemin aradan qaldırılması üçün FAO dünyada kənd təsərrüfatı məhsulları ilə təminatın yaxşılaşdırılması məqsədilə fərdi və kollektiv fəaliyyət proqramlarını həyata keçirmək, həmçinin bu sahədə hökumətlərarası təşkilatların işlərinin əlaqələndirilməsi üzrə ixtisaslaşdı.

*Ardı 7-ci səh.*

## «Şahdəniz»in qoşa dayağı

### Layihənin hər iki mərhələsindən qaz və kondensat ixracı davam edir

Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində qaz və kondensat “Şahdəniz Alfa” platformasından hasil edilir. İndi “Şahdəniz Alfa”nın qonşuluğunda daha iki platforma fəaliyyət göstərir. Bir-birinə körpü vasitəsilə birləşdirilmiş bu iki qurğu “Şahdəniz Bravo” adlanır. Artıq yarım ildən çoxdur ki, “Şahdəniz Bravo”dan layihənin ikinci mərhələsinin karbohidrogenləri çıxarılır.

Ötən illər ərzində “Şahdəniz-1” beynəlxalq aləmdə böyük marağa səbəb olub və Azərbaycanı qaz ixracatçısı kimi tanıdaraq, əslində, ölkəmiz üçün yeni bir dönəmin başlanğıcını qoyub. Bu, uğurlu bir layihədir. Çünki “Şahdəniz Alfa” platforması uzun müddətdir fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

*Ardı 7-ci səh.*

## Ermənistanda yeni diktatura formalaşır

### İşğalçı ölkəni xaosa sürükləyən növbədənkənar parlament seçkiləri ictimai-siyasi vəziyyəti daha da gərginləşdirib

Ermənistanda növbədənkənar parlament seçkiləri fonunda baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın “Mənim addımım” bloku ciddi fərqlə rəqiblərini geridə qoydu və parlamentdə üstünlüyünü təmin etdi. Çoxsaylı qanun pozuntuları ilə keçirilən seçkilərdən müxalifət qüvvələri birmənalı şəkildə narazılıq edirlər. Sabiq prezident Serj Sarkisyanın sədri olduğu “Respublika” partiyasının seçkiqabağı qərargahının səsvermənin yekunlarına dair bəyanatında da bildirilir ki, növbədənkənar parlament seçkiləri məzmun etibarilə demokratiyadan çox uzaq keçib.

*Ardı 8-ci səh.*

# Rusiya ilə NATO növbəti dəfə Azərbaycana etimad göstərdi







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı, ilk növbədə, Rusiya ilə NATO yüksək hərbi rəhbərliyi arasında görüşün keçirilməsi üçün Bakının seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu, bizim ölkəyə hörmətin, etimadın göstəricisidir və bir daha Azərbaycanın dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edən mühüm beynəlxalq tədbirlərin müntəzəm olaraq keçirildiyi məkana çevrildiyini göstərir və Azərbaycan bunu yüksək qiymətləndirir. Dövlət başçısı Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətinin səfərinin eyni zamanda Azərbaycan-Rusiya əlaqələri ilə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını dedi. İkitərəfli münasibətlərimizin bütün sahələrdə, o cümlədən hərbi sahədə çox uğurlu və dinamik şəkildə inkişaf etdiyini deyən Prezident İlham Əliyev yüksək səviyyədə keçirilən görüşlərin əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını bildirdi. Təkcə bu il Azərbaycan və Rusiya dövlət başçıları arasında çoxsaylı görüşlərin keçirildiyini vurğulayan Prezident İlham Əliyev son dəfə Sankt-Peterburqda Rusiya Prezidenti ilə təmaslarını məmnunluqla xatırladı. Dövlət başçısı bu il, eyni zamanda, ölkələrimiz arasında xeyli sayda sazişlərin və sənədlərin imzalandığını vurğulayaraq qarşılıqlı fəaliyyətin səviyyəsinin daha da yüksəldilməsi məqsədilə ölkələrimiz tərəfindən əldə olunmuş razılıqların icra edilməsinin önəmini qeyd etdi və buna nail olunduğunu bildirdi. Rusiya ilə Azərbaycanın dostluq münasibətlərinin tarixi sınaqlardan çıxdığını qeyd edən Prezident İlham Əliyev bu gün ölkələrimizin etibarlı tərəfdaş olduğunu, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın yüksək səviyyəyə qalxdığını dedi və Valeri Gerasimovun ölkəmizə səfərinin bu sahədə əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günündə dövlət başçısı ilə görüşünü yüksək qiymətləndirdi. O, ulu öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət və xatirələrini ehtiramla yad edəcəklərini vurğuladı. NATO və ABŞ nümayəndələri ilə artıq neçənci dəfədir ki, Bakıda görüşdüklərini qeyd edən Valeri Gerasimov paytaxtımızın bunun üçün çox münasib bir məkan olduğunu və bu cür görüşlər üçün burada hər cür şəraitin yaradıldığını vurğuladı.

İkitərəfli münasibətlərə toxunan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini bildirdi.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# *Hikmət HACIYEV:* “Azərbaycan qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu strateji dialoq platforması rolunu oynayır”

Dekabrın 12-də Bakı şəhərində NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti ilə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş qərargah rəisi Valeri Gerasimov arasında görüş keçirilib.

2017-ci ildən etibarən Bakıda ABŞ və Rusiya, NATO və Rusiya hərbi rəhbərliyinin görüşlərinin keçirilməsi artıq ənənəvi xarakter daşıyır. Belə ki, 2017-ci ilin fevralında Amerika Birləşmiş Ştatlarının Baş Qərargahlar rəisi ilə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş qərargah rəisi, 2017-ci ilin sentyabrında isə NATO-nun hərbi komitəsinin sədri ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi arasında Bakıda görüşlər keçirilib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib: “Prezident İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrottini qəbul edərkən qeyd olunduğu kimi, qlobal təhlükəsizliyə aid vacib məsələlərin müzakirə edilməsi üçün bir çox ölkələr sırasından məhz Azərbaycanın seçilməsi ölkəmizə olan hörmət və etimadın, eyni zamanda, respublikamızın regional təhlükəsizlik, inkişaf və sabitliyin təmin edilməsində oynadığı rolun və yürütdüyü müstəqil siyasətin göstəricisidir”.

Şöbə müdiri qeyd edib ki, dost və qonşu ölkələr olaraq, Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Azərbaycan və ABŞ arasındakı strateji münasibətlər təhlükəsizlik, enerji və iqtisadi sahələrdə əməkdaşlığı əhatə edir. Azərbaycan “Sülh naminə tərəfdaşlıq” proqramı çərçivəsində NATO-nun etibarlı və fəal tərəfdaşıdır, ikitərəfli əməkdaşlığın gündəliyi geniş xarakter daşıyır.

Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, Azərbaycan Respublikası, xüsusilə Bakı şəhəri regionun “diplomatik paytaxtı” olaraq humanitar, dayanıqlı inkişaf, multikulturalizm, mədəniyyətlərarası və dinlərarası dialoq, enerji və digər məsələlərin müzakirəsi üçün beynəlxalq məkan olmaqla bərabər, qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu strateji dialoq platforması rolunu da oynayır. Azərbaycan beynəlxalq ictimaiyyətin layiqli və məsuliyyətli üzvü olaraq bu formatda görüşlərin keçirilməsinə evsahibliyi etməklə qlobal sülh və təhlükəsizliyin, silahlara nəzarət rejiminin möhkəmləndirilməsinə, beynəlxalq səviyyədə gərginliyin azaldılmasına və strateji dialoq və qarşılıqlı etimad mühitinin formalaşmasına öz töhfəsini verir.

## “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 75; 2017, № 1, maddə 9) aşağıdakı məzmunda 11.4-cü maddə əlavə edilsin:

“11.4. “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikası Qanununun 14.1.4-cü maddəsinə uyğun olaraq, teatr tamaşalarında tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsi qadağandır.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1330-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1330-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 568; 2002, № 5, maddə 240; 2003, № 1, maddə 6; 2007, № 5, maddə 397, № 10, maddə 938; 2009, № 12, maddə 945; 2016, № 1, maddə 28; 2017, № 1, maddə 2, № 12 (I kitab), maddə 2244) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“1.0.4. tütün məmulatı - tütün yarpağından və onun komponentlərindən hazırlanmış, tərkibində nikotin, aktiv alkoloid, o cümlədən kanserogen maddələr olan və nikotinə aludəçilik yaradan məhsul (siqaretlər, papiroslar, siqarlar, siqarillalar, çubuq tütünü və s.)”.

2. 1.0.5-ci maddədə “tütün və tənbəki yarpağında və tüstüsündə” sözləri “tütünün və tənbəkinin tərkibində” sözləri ilə əvəz edilsin.

3. 13.2-ci maddədə “siqaret” sözü “tütün məmulatı” sözləri ilə əvəz edilsin.

4. 13.3-cü maddədə “və tütün qatranının” sözləri “, tütün qatranının və karbon monoksidinin” sözləri ilə əvəz edilsin.

5. 14.3.4-cü maddədə “siqaret” sözü “tütün” sözü ilə, “və tütün qatranının” sözləri isə “, tütün qatranının və karbon monoksidinin” sözləri ilə əvəz edilsin.

6. 15.3.4 və 15.6-cı maddələrdə “siqaret” sözü “tütün” sözü ilə əvəz edilsin.

7. 15.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“15.4. Tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1327-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1327-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 682; 2007, № 12, maddə 1218; 2008, № 2, maddə 49, № 5, maddə 344; 2009, № 12, maddələr 948, 968; 2014, № 10, maddə 1151; 2018, № 4, maddə 640) aşağıdakı məzmunda 39.4-cü maddə əlavə edilsin:

“39.4. Bu qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

## “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1346-VQD nömrəli Qanununun tətbiqi və “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1346-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun 39.4-cü maddəsinə uyğun olaraq, müvafiq pozuntulara görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılmaq üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə qaydasını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1011; 2008, № 8, maddə 718; 2009, № 8, maddə 630; 2010, № 3, maddə 186; 2015, № 7, maddə 841; 2018, № 4, maddə 672) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə “və 33.9-cu maddələrində” sözləri “, 33.9-cu maddələrində, 39.4-cü maddəsinin birinci (hər üç halda) və ikinci cümlələrində” sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 2.7-1-ci - 2.7-4-cü bəndlər əlavə edilsin:

“2.7-1. həmin qanunun 39.4-cü maddəsində “qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.7-2. həmin qanunun 39.4-cü maddəsinin ikinci cümləsində “orqan” dedikdə vəsaitlərin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin işçilərinə münasibətdə) nəzərdə tutulur;

2.7-3. həmin qanunun 39.4-cü maddəsinin birinci cümləsində “orqanın işçiləri” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, həmçinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin işçiləri nəzərdə tutulurlar;

2.7-4. həmin qanunun 39.4-cü maddəsinin birinci cümləsində (üçüncü halda) “orqan” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# Ümumxalq məhəbbətinin təcəssümü



## Ulu öndər Heydər Əliyevin xatirəsi böyük ehtiramla anıldı

Tarixə adı yazılan şəxsiyyətləri nə zaman unudur, nə də ictimai-siyasi burulğanlarda varlığını qoruyub saxlayan xalq. Talelərə yazılan sərt sınaqlardan əzmlə çıxaraq sevilmək o qədər də asan deyil, bunu tarix dəfələrlə təsdiqləyib. Bu şərəf, əlbəttə, çoxlarına nəsib olmur. Xalqımızın ümummilli lideri, ictimai-siyasi fəaliyyəti və bütövlükdə mənalı həyatı örnəyə çevrilən ulu öndər Heydər Əliyevin də məhz belə şəxsiyyət kimi tanınmasını şərtləndirən səbəblər kifayət qədərdir.

...On beş il öncə, 2003-cü ilin soyuq dekabr ayında paytaxt Bakı bugünkündən fərqli olaraq, sükut, qüssə və kədərə bürünmüşdü. O zaman hüznlü baxışlardan süzülən kədər, qəhər və qüssə dolu göz yaşları yanaqları yandırırdı. Dünən isə Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edənlərin çöhrəsindəki kədərin arxasında bir əminlik də duyulurdu. Bunun səbəbləri az deyil. Ən əsası odur ki, ulu öndərin memarı olduğu müstəqil Azərbaycan bu gün nəinki Cənubi Qafqazda, artıq inkişafına görə dünyanın aparıcı dövlətləri sırasında olduğunu təsdiqləyib. Ulu öndərin müəyyənləşdirdiyi siyasi kurs dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ziyarətə gələnlərin yaş fərqi göstərirdi ki, xalqın qəlbində əbədi məşəl yandıranlar cismən uzaqlaşsa, haqqın dərgahına qovuşsalar da, onlar mənən yaşayır və əbədiyyət simvoluna çevrilirlər. Ulu öndərin daim bahar təravətli gül-çiçəyə bələnmiş müqəddəs ziyarətgahının yenə də insan axınına darlıq etməsi bunun təsdiqidir.

Ümumxalq məhəbbətinin şahidinə çevrilənlərin arasında əcnəbilər də az deyildi. İstər ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, istərsə Azərbaycanın füsunkar təbiətinin gözəlliyini gözləri ilə görməyə gələnlər ziyarətçilərin arasında idilər. Yaşından və vəzifəsindən asılı olmayaraq, ölkənin yüz minlərlə vətəndaşı (nəinki paytaxt sakinləri, respublikamızın ayrı-ayrı bölgələrindən ziyarətə gələnlər az deyildi) ulu öndərə sonsuz məhəbbətini ifadə etmək üçün Fəxri xiyabana üz tutmuşdu...

Qardaş Türkiyənin Kayseri şəhərindən olan Mustafa Babacan həyəcanlı olsa da, fikrini ifadə etməkdə çətinlik çəkmədi: "Ulu öndər Heydər Əliyev dünyaya günəş kimi doğduğu yalnız Azərbaycanda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda yaşayan azəri, oğuz türklərinin də lideri kimi sevilir. Türk dünyası ulu öndərin zəkası ilə nura qərq olan Azərbaycanın kədərini, sevincini özününkü bilir və şərik olur. Heydər Əliyev türk xalqlarının birlikdə olmasını arzulamış və söyləmişdir: "Türkiyə-Azərbaycan bir millət-iki dövlət"dir. Azərbaycanın bu gün regionda lider dövlətə çevrilməsi ümummilli liderin - həyat və fəaliyyətini bütünlüklə müstəqil ölkəmizin çiçəklənməsinə, onun dünya birliyində layiqli yer tutmasına həsr etmiş Heydər Əliyevin xidmətləridir".

Ölkəmizdən kənarda yaşayan azərbaycanlıların bu günlərdə Bakıya can ataraq Fəxri xiyabanı ziyarət etmələri ümummilli liderin vaxtilə dünya azərbaycanlılarını azərbaycançılıq məfkurəsi ətrafında birləşməyə çağırışının nəticəsidir. Soydaşlarımız müxtəlif peşə sahibləri olsalar da, Azərbaycan adlı Vətənin şərəfini hər şeydən uca tutmuş ulu öndərin müqəddəs məzarını ziyarət etməyi özlərinə borc bilirlər. Rusiya Federasiyasının Dağıstan Respublikasından, dəmir qapı Dərbənddən gəlmiş Azərbaycan, Türkmən, İraq yazıçılar birliklərinin üzvü, şairə-müğənni, Zeynəb (İbrahimxəlilova) Dərbəndlinin fikirləri maraqlı olduğu qədər də qürurvericidir: "Harada yaşamasından asılı olmayaraq, hər birimiz ulu öndər Heydər Əliyevin ideyalarının daşıyıcısı və təbliğatçısı olmalıyıq. Axı, bizim Azərbaycan xalqının bir evi, bir ana dili, bir müstəqil dövləti var. Dərbənddən Azərbaycan daha gözəl görünür. Bu gün Dərbənddə Azərbaycan-Rusiya münasibətlərinin ən yüksək səviyyədə olduğu hamıya məlumdur. Bundan qürur duyuruq ki, Azərbaycan regionda söz sahibidir. Bu isə, əlbəttə, ümummilli lider Heydər Əliyevin siyasətinin uğurlu davamının nəticəsidir. Məhz Heydər Əliyevin təşəbbüs və imzaladığı sənədlə 31 dekabr tarixə Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi yazıldı. Mahnı və şeirlərimdə Heydər Əliyevlə ana Vətən qoşa tərənnüm edilir".

Dərbənddən olan digər qonaq Azərbaycan, Türkmən, İraq yazıçılar birliklərinin üzvü Fəxrəddin Orucovdur. Qələm dostunun fikirləri ilə bölüşən həmsöhbətim yalnız bunu əlavə edir: "...Xalqın qəlbində əbədi məşəl yandıranlar yaşayır və əbədiyyət simvoluna çevrilirlər, ümummilli lider Heydər Əliyev də bizə bunu öyrətmişdi".

Bakı şəhərinin Nərimanov rayonundakı 8 nömrəli poliklinikanın baş həkimi Tamella Kərimova ziyarətə rəhbərlik etdiyi kollektivlə birlikdə gəlmişdi. YAP 8 nömrəli poliklinika üzrə ilk təşkilatın katibi Rafael Bayramov, həkimlərdən Amil Eyvazov, Arzu Səfərova, Svetlana Nəcəfova və digərləri ulu öndərin məzarını ziyarət edənlərin sırasında idilər. Tibb işçiləri hər il olduğu kimi, dünən də həmkar ehtiramı olaraq ulu öndərin ömür-gün yoldaşı, mərhum akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər gül dəstələri düzürdülər. Baş həkim Tamella Kərimova kollektivin ümumi fikrini belə ifadə etdi: "Ölkəmizin həyatının bütün sahələrində, eləcə də Azərbaycanda səhiyyənin inkişafında ümummilli lider Heydər Əliyevin xidmətləri böyükdür. Həyata keçirdiyi quruculuq missiyasının məntiqi nəticəsidir ki, qədirbilən xalqımız demokratik və hüquqi dövlətdə yaşamaq xoşbəxtliyinə nail olub"...

"Heydər Əliyev nadir, unikal, seçilən, dünya siyasətinə təsir etmək gücündə olan lider idi". "İnternat Məzunlarının Sosial İnteqrasiyası" Gənclər İctimai Birliyinin sədri Araz Əhmədov Seymur və Mahirə Kazımlılar, Qubad Tarverdiyev, Aqil Fərəcov və digər gənclərin fikirlərini ümumiləşdirib bildirdi ki, ulu öndər Heydər Əliyev tək bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü demiş nadir siyasətçilərdən idi: "Ölkənin ən ağır günlərində, müharibə şəraitində bütün çətinliklərə, daxili və xarici çəkişmələrə baxmayaraq, ulu öndər müstəqil dövlətimizi qurdu və gücləndirdi. Bir fikri isə xüsusi vurğulamaq istəyirəm: "Ümummilli lider hər kəsdən daha çox internatda yaşayan uşaqların babası kimi sevildi. Dəqiq yadımdadır: hər bayram gününü, demək olar ki, o, bizimlə keçirərdi. Bizi internatdan götürüb Əl Oyunları Sarayına aparardılar. Hər dəfə sağında və solunda uşaq evində böyüyən uşaqlar oturdardı. Valideynini itirmiş və onların himayəsindən məhrum olmuş uşaqlara xüsusi diqqət ayırardı. Buna əsas olaraq 1999-cu ildə bizim kimi uşaqların sosial şəraitinin yaxşılaşdırılması və əsil vətəndaş olaraq yetişməmiz üçün qanunlar qəbul etdi. Bu gün həmin siyasəti Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva həyata keçirir. Biz internat və uşaq evi məzunları kimi ümummilli lider Heydər Əliyevin əziz xatirəsini vəfatının 15-ci ildönümündə də dərin ehtiram və hörmətlə anırıq".

Laçın rayonunun 32 nömrəli tam orta məktəbindən direktor müavini Bəsirə Məmmədli, Yasamal Rayon MKS-in 3 saylı filialının müdiri Arzu Xudayarova, Sabunçu rayon MKS-nin 12 saylı filialının müdiri Vəsilə Məmmədova, Ə. Paşayev adına Sabunçu rayon mədəniyyət evinin direktoru Kərim Kərimov, Nərimanov rayonundakı 39 nömrəli tam orta məktəbin ibtidai siniflər üzrə metodbirləşmənin sədri, şəhid bacısı Sədaqət Məlikova, həmin təhsil ocağının müəllimlərindən Sevinc Paşayeva, Zülfiyyə Həsənova, Sevər Orucova, Təranə Abdullayeva, Qumru Orucova, həmçinin Astara rayon Pensər kənd 2 nömrəli liseyin direktor müavini Elmir Kərimov və digərləri dünən müasir dövlətimizin memarı və qurucusu - ulu öndər Heydər Əliyevin müqəddəs məzarını ziyarət edənlərin arasında idi. Bəli, ziyarətçilər belə qüdrətli dövlətin banisi olduğu üçün ümummilli liderə daim minnətdar olacaqlarını bildirir, cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə, respublikamızın inkişafında bundan sonra da əzmkarlıq nümayiş etdirəcəklərini əminliklə söyləyirdilər.

***Rəhman SALMANLI,***
***Məhəmməd NƏRİMANOĞLU,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

## Naxçıvanda ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilib

Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə tər gül dəstəsi qoyub, xalqımızın böyük oğlunun xatirəsinə ehtiramını bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların kollektivləri, ali və orta ixtisas məktəblərinin müəllim və tələbələri, hərbi hissələrin və ictimaiyyətin nümayəndələri, minlərlə insan ulu öndərin abidəsi önünə gələrək əziz xatirəsini yad ediblər.



Ümummilli lider Heydər Əliyevin zəngin siyasi irsi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanın dünəni, bugünü və gələcəyidir. 1969-cu il iyulun 14-də ulu öndərin ölkəmizə rəhbər seçilməsi Azərbaycanın müstəqillik tarixinin və uğurlu inkişafının əsasını qoydu. 1969-1982-ci illərdə ümummilli liderin rəhbərliyi ilə Azərbaycanda böyük iqtisadi tədbirlər reallaşdırılıb, istehsal müəssisələri, zavodlar, fabriklər tikilib, təhsil, səhiyyə, mədəniyyət ocaqları fəaliyyətə başlayıb, xalqımızın tarixi yaddaşı bərpa edilib. İkinci dəfə qazandığımız dövlət müstəqilliyinin əsasında da ulu öndərin ötən əsrin 70-80-ci illərdə yaratdığı möhkəm təməl, güclü intellektual və iqtisadi potensial, milli ruh dayanırdı.

Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası müstəqil Azərbaycanın uğurlu inkişafının təməlində dayanan əsas amildir. Vətənin ağır bəlalardan xilasını özünün tarixi missiyası kimi qəbul edən ümummilli liderin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyasına həsr edilib. Bu missiyanın öz başlanğıcını götürdüyü məkan isə Azərbaycanın Naxçıvan Muxtar Respublikasıdır. Ulu öndər Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Azərbaycan xalqının azadlıq və müstəqilliyi üçün çalışıb, müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atıb. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılıb, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilib, qədim Naxçıvan torpağı erməni təcavüzündən qorunub. Dahi rəhbərin o çətin dövrdə Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqil dövlətçiliyimizin bünövrəsini qoyub.

Xalqın ulu öndər Heydər Əliyevə olan böyük inamı və təkidli tələbi ilə 1993-cü il iyunun 15-də dahi rəhbər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdı. Bu qayıdış Milli Qurtuluş Günü kimi tarixə düşdü. Ümummilli liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi ölkəmizdəki böhrana son qoydu, xalqımız azərbaycançılıq ideyaları ətrafında birləşdi. Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Müstəqil, demokratik, hüquqi və dünyəvi dövlətçilik yoluna qədəm qoyan Azərbaycanın qarşısında duran problemlər həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

Ulu öndər Heydər Əliyevin ömür yoluna nəzər salsaq aydın olar ki, bu ömür yalnız bir məqsədə xidmət edib: o da müstəqil və qüdrətli Azərbaycandır. Ona görə də ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi illər tariximizə milli intibah, milli tərəqqi, milli oyanış və müstəqil dövlət quruculuğu dövrü kimi daxil olub.

Bu gün xalqımız əmindir ki, ümummilli liderin siyasi kursu möhkəm əllərdədir. Bu kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev nəinki regionda, bütövlükdə dünyada qəbul edilmiş siyasətçi kimi Azərbaycanı inamla daha xoşbəxt gələcəyə aparır. Dövlət başçısının da dediyi kimi: "Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmlənməsidir... Biz daha da güclü olmalıyıq və bu yolla gedirik. Bu yol Heydər Əliyev yoludur. Biz onun siyasətinə sadiqik".

Bu gün Naxçıvan Muxtar Respublikası da əsl inkişaf və tərəqqi dövrünü yaşayır. Bu tərəqqiyə ümummilli liderin müəllifi olduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi və Heydər Əliyev siyasi xəttinə sədaqət nəticəsində nail olunub. Son illər muxtar respublikada quruculuq işləri geniş vüsət alıb, dinamik iqtisadi inkişaf əldə olunub, infrastruktur yenilənib, sosial proqramlar qəbul edilərək icra olunub, enerji və ərzaq təhlükəsizliyi təmin edilib, etibarlı müdafiə sistemi yaradılıb.

İnkişaf, milli birlik və həmrəylik, güclü dövlət və müstəqillik ümummilli liderin siyasi fəaliyyətinin əsas qayəsini təşkil edirdi. Zaman keçdikcə, illər ötdükcə Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha dərindən dərk edirik. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: "Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir".

Müdriklər deyir ki, "Vətənə və xalqa həsr olunmuş ömür bitmir". Ümummilli lider də deyirdi ki: "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev Muzeyinə gələrək ümummilli lider Heydər Əliyevin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb.

Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderin əziz xatirəsi dərin ehtiramla yad edilib.

## *Çinli rəssam:* "Mənim peşəkar rəssamlığa gəlməyimdə Heydər Əliyevin xeyir-duası böyük rol oynayıb"




"Heydər Əliyev dahi və səmimi şəxsiyyət idi. Mənim peşəkar rəssamlığa gəlməyimdə onun xeyir-duası böyük rol oynadı. Bəlkə də uşaq ikən Heydər Əliyevlə görüşməsəydim, rəssam olmayacaqdım".

Bu sözləri AZƏRTAC-a müsahibəsində çinli rəssam Cen Yanyan söyləyib. O deyib: "Kiçik yaşlarımda ailə məclislərinin birində dünyanın tanınmış siyasi şəxsiyyətləri haqqında söhbət zamanı keçmiş SSRİ-nin rəhbərlərindən olmuş Heydər Əliyev və onun Çinə səfəri haqqında eşitmişdim. Sonra Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti olduğunu öyrəndim və ona məktub yazaraq görüşmək istəyimi bildirdim. Doğrusu, məktubuma cavab alacağıma inamım az idi. Amma çox qısa zamanda cavab gəldi və görkəmli siyasətçi Heydər Əliyev məni Azərbaycana dəvət etdi".

Bu hadisənin 1996-cı ildə, onun 11 yaşı olanda baş verdiyini xatırladan Cen Yanyan bildirib ki, dəvətə əsasən valideynləri ilə birgə Azərbaycana gedib. "Dahi şəxsiyyət Heydər Əliyev işinin çox olmasına baxmayaraq, bizi Prezident Sarayında qəbul etdi, səmimi söhbətimiz oldu. Mən həvəskar kimi çəkdiyim ilk əl işlərimdən olan "100 Böyük Panda" və Çin milli çiçəyi "Mudanxua" əsərlərimi ona təqdim etdim. Heydər Əliyev mənim yaradıcılığımı yüksək qiymətləndirdi və mənim bu sənətdə böyük uğurlar qazanacağıma inandığını dedi. Sonra bizim Bakı məktəblərində görüşlərimiz oldu. Hörmətli Heydər Əliyev Bakıda mənim fərdi rəsm sərgimi təşkil etdirdi. Biz Azərbaycanda çox səmimi qarşılandıq, səfərimiz mənim və ailə üzvlərimizin yaddaşında xoş izlər buraxdı.

Heydər Əliyevin Azərbaycan və Çin arasında dostluq münasibətlərinin inkişafında əvəzsiz xidmətləri olub. Biz Çin xalqı olaraq onu həmişə xatırlayacağıq. Valideynlərimlə birlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsini dərin hörmətlə yad edirik. Onun vəfatının 15-ci ildönümünü dərin ehtiram və hüznlə anırıq", - çinli rəssam vurğulayıb.

# Ulu öndərin əziz xatirəsi xaricdə də yad olunub



Ümummilli lider Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə bağlı Kiyevdə Heydər Əliyev adına parkda ulu öndərin abidəsinin önündə anım mərasimi keçirilib.

Azərbaycanın Ukraynadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən anım mərasimində bu ölkədə fəaliyyət göstərən Azərbaycan şirkətlərinin təmsilçiləri, azərbaycanlı tələbələr, diaspor nümayəndələri, yerli vətəndaşlar iştirak ediblər.

İştirakçılar əvvəlcə ulu öndərin abidəsi önünə tər çiçəklər düzərək, xatirəsini ehtiramla yad ediblər.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində göstərdiyi misilsiz xidmətlərdən danışan ölkəmizin Ukraynadakı səfiri Azər Xudiyev bildirib ki, Azərbaycanın ən yeni tarixi Heydər Əliyevin adı ilə bağlıdır. Onun misilsiz xidmətləri, qurduğu uğurlu strategiyası nəticəsində Azərbaycan dünyada seçilən güclü dövlətlərdən birinə çevrilib.

Sonra Ukraynada Azərbaycan diasporunun fəalı Akif Gülməmmədov, "SOCAR Energy Ukraine" şirkətinin baş direktoru Elçin Məmmədov ümummilli liderin Azərbaycan xalqı qarşısındakı unudulmaz xidmətlərindən danışıblar. Qeyd edilib ki, dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə tarixi qayıdışından sonra böyük inamla dünya azərbaycanlılarının bir amal və bir məslək uğrunda fəal mübarizə aparmasına çalışıb və öz dühasının gücü ilə bu çətin işin öhdəsindən uğurla gəlib.

* * *

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Tədbirdə Azərbaycanın Əbu-Dabidəki səfirliyinin və Dubaydakı baş konsulluğunun əməkdaşları, BƏƏ-dəki Azərbaycan icmasının və yerli ictimaiyyət nümayəndələri, bu ölkədə səfərdə olan Azərbaycan ticarət missiyasının üzvləri, yerli ictimai-siyasi xadimləri və iş adamları, jurnalistlər iştirak ediblər.

Ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edən Azərbaycanın BƏƏ-dəki səfiri Daşqın Şikarov ümummilli lider Heydər Əliyevin həyat və siyasi fəaliyyəti barədə danışıb. Ümummilli liderin Sovet İttifaqı dövründə Azərbaycana rəhbərliyindən bəhs edən səfir məhz Heydər Əliyevin Vətəninə və xalqına hədsiz sevgisi və sədaqəti kimi şəxsi keyfiyyətlərinin, müxtəlif yüksək vəzifələrdə fəaliyyəti zamanı əldə etdiyi idarəçilik təcrübəsinin və inkişaf məsələlərində strateji yanaşmasının ölkəmizin dərin tənəzzüldən çıxmasına şərait yaratdığını vurğulayıb. Azərbaycanın gələcək siyasi müstəqilliyinin möhkəm iqtisadi təməlinin məhz həmin illərdə yaradıldığını bildirən səfir, dahi rəhbərin səyləri nəticəsində Sovet İttifaqının geridə qalmış respublikalarından biri kimi tanınan Azərbaycanın çox keçmədən ardıcıl inkişaf yoluna qədəm qoyduğunu, ölkə həyatının bütün sahələrində quruculuq işlərinin vüsət aldığını, kənd təsərrüfatı istehsalının dəfələrlə artdığını, yüzlərlə yeni sənaye müəssisəsi qurulduğunu deyib. O, Heydər Əliyevin rəhbərlikdə olduğu illərin Azərbaycan tarixinə siyasi, iqtisadi, mədəni yüksəliş dövrü kimi daxil olaraq, xalqın milli mənlik şüurunun oyanışına güclü təkan verdiyini, tarixi ənənələrinin, dilinin qorunmasına şərait yaratdığını qeyd edib. Səfir Azərbaycanda 1992-ci ilin 15 may tarixində dövlət çevrilişi yolu ilə hakimiyyətə gələn qüvvələrin səriştəsizliyi nəticəsində ölkədə hökm sürən hərc-mərcliyin respublikanı fəlakət həddinə gətirib çıxardığını təəssüflə xatırladıb, o vaxt çoxlarının Azərbaycanın bu qədər böyük təhlükələrdən qurtula biləcəyinə və müstəqilliyini qoruyub saxlayacağına inanmadığını, lakin Heydər Əliyevin vətəndaş hünərinin tarixin gedişatını dəyişdiyini və Azərbaycanı diz çökdürmək ssenarilərini alt-üst etdiyini xüsusi qeyd edib. Daşqın Şikarov 1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışı sayəsində Azərbaycanın uçurumun bir addımlığından dönə bildiyini vurğulayıb, dünyanın siyasi axarını, nəhəng dövlətlərin maraqlarının çarpazlaşan nöqtələrini çox gözəl bilən Heydər Əliyevin dərin zəkası, siyasi uzaqgörənliyi və polad iradəsi ilə bütün çağırışlara tab gətirdiyini diqqətə çatdırıb. Ulu öndərin 1993-2003-cü illərdəki rəhbərliyi dönəminə nəzər salan səfir deyib ki, bu illər ərzində Azərbaycanda demokratik dəyərlər bərqərar olub, ictimai-siyasi sabitlik yaranıb, islahatlar geniş vüsət alıb.

Ümummilli liderin uğurlu xarici diplomatiyası barədə də dolğun məlumat verən səfir diqqətə çatdırıb ki, bu uğurlu siyasi kurs və inkişaf xətti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və zənginləşdirilir. Son 15 ildə ölkəmizin keçdiyi dinamik inkişaf yolu, böyük geostrateji əhəmiyyət kəsb edən enerji və nəqliyyat layihələri buna əyani sübutdur. Ulu öndərin parlaq xatirəsinin hər bir azərbaycanlının qəlbində yaşadığını və əbədi yaşayacağını vurğulayan Daşqın Şikarov qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dahi şəxsiyyətin zəngin irsinin yetişən nəsillərə ötürülməsi kimi ali vəzifənin öhdəsindən layiqincə gəlir və Heydər Əliyev irsinin qəlblərdə daim yaşamasında əvəzsiz rol oynayır. Səfir Heydər Əliyev ideyalarının ölkəsindən uzaqda yaşayan həmvətənlərimizin bu gün də bir-biri ilə sıx təmasda olmalarına xidmət etdiyini, ulu öndərin xatirəsinin özünü azərbaycanlı hesab edən və azərbaycançılıq ideyalarına sadiq olan hər kəsin qəlbində xüsusi yerə malik olmasını diqqətə çatdırıb.

Azərbaycanın Dubay və Şimal Əmirliklərindəki baş konsulu Cavidan Hüseynov çıxışında ümummilli liderin istər SSRİ dövründə, istərsə də müstəqilliyimiz bərpa olunduqdan sonra Azərbaycanın maraqlarını bütün imkanlardan istifadə edərək qoruduğunu, ölkəmizin davamlı tərəqqi və inkişaf yolu tutduğunu bildirib. O, dahi rəhbərin Azərbaycan xalqı və dövlətçiliyi üçün ən böyük xidmətinin azərbaycançılıq ideyasının yaradılması, sevdirilməsi və inkişaf yoluna qoyulması olduğunu deyib, ulu öndərin xatirəsinin hər bir azərbaycanlının qəlbində xüsusi yerə malik olmasını, soydaşların tədbirdə toplaşmasının məhz bunun əyani sübutu olduğunu vurğulayıb. Baş konsul Heydər Əliyev ideyalarının bu gün də Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini, onun rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatların, əldə olunan yüksək nəticələrin müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratdığını xüsusi qeyd edib.

Azərbaycanın BƏƏ-də ticarət nümayəndəsi Elnur Əliyev bildirib ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə həyatın bütün sahələrində misli görünməyən inkişaf başlayıb, məhz ulu öndərin uzaqgörənliyi və qlobal düşüncə qabiliyyəti hesabına enerji, nəqliyyat və digər sektorlarda öz müstəsna aktuallığını bu gün bariz şəkildə göstərən milli strategiyalar işlənib hazırlanıb. Həmin strategiyalar milli iqtisadiyyatımıza on milyardlarla dollar xarici kapital axınını təmin edib. Elnur Əliyev ulu öndərin "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir" kəlamını xatırlayaraq, ümummilli liderin o dövrdəki əsas fəaliyyətinin məhz bu fikir ətrafında qurulduğunu diqqətə çatdırıb.

Sonra tədbir iştirakçıları ulu öndərin həyat və siyasi fəaliyyətinə həsr olunmuş sənədli filmi izləyiblər.

Çıxışlar və filmin nümayişindən sonra qonaqlar üçün ulu öndərin xatirəsinə ehsan süfrəsi açılıb. Ümummilli lider Heydər Əliyev barədə Birləşmiş Ərəb Əmirliklərində çap olunmuş kitabların nüsxələri tədbir iştirakçılarına paylanılıb.

* * *

Azərbaycanın Litvadakı səfirliyi Vilnüsdə xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə bağlı anım mərasimi keçirib.

Tədbirdə səfirliyin əməkdaşları ilə yanaşı, Litvada yaşayan azərbaycanlılar, tələbə-gənclər təşkilatlarının fəalları, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Daha sonra Azərbaycanın Litvadakı müvəqqəti işlər vəkili Atəş Qırxıyev çıxış edərək ümummilli liderin həyat və fəaliyyəti haqqında danışıb, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib.

Digər çıxış edənlər ulu öndərin əziz xatirəsinin qədirbilən Azərbaycan xalqı tərəfindən daima uca tutulduğunu bildirib, ümummilli liderin xaricdə yaşayan, o cümlədən Baltik ölkələrində məskunlaşan soydaşlarımıza qayğı və diqqətindən danışıblar.

Tədbir çərçivəsində ulu öndərin həyat və fəaliyyətinə dair fotokompozisiyadan ibarət sərgi və sənədli film nümayiş etdirilib.

Litvanın Kaunas, Utena, Klaypeda, Şiaulyay şəhərlərində də ulu öndərin xatirəsi yad olunub.

* * *

Xalqımızın ümummilli lideri, görkəmli siyasətçi Heydər Əliyevin xatirəsi Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyində anılıb.

Ulu öndərin səfirlikdəki büstü önünə əklil qoyulub, dahi liderin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfir Əkrəm Zeynallı çıxış edərək ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanın qurulması və inkişafındakı əvəzsiz xidmətlərindən söz açıb. Bildirib ki, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi müdrikliyi və uzaqgörənliyi, böyük idarəçilik istedadı ilə Azərbaycanı çətin siyasi vəziyyətdən xilas edərək, işıqlı gələcəyə gedən yola çıxarıb. Xalqın həqiqi liderinə çevrilən Heydər Əliyev elə xalqın dəstəyi ilə Azərbaycanı yenidən qura bildi.

Ulu öndərin dünyada da böyük nüfuza malik olduğunu bildirən səfir Ə.Zeynallı deyib ki, bir çox ölkənin başçısı mürəkkəb məsələlərlə bağlı ondan tövsiyə və məsləhət alırdılar.

Bildirilib ki, ulu öndərin layiqli davamçısı olan Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan hərtərəfli inkişafı ilə dünyada diqqət çəkir. Ümummilli liderin ideya müəllifi olduğu irimiqyaslı enerji və nəqliyyat layihələrinin icrası ilə regionda lider dövlətə çevrilən Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır. Azərbaycan beynəlxalq miqyaslı idman yarışlarına, festivallara, qlobal forumlara, nüfuzlu tədbirlərə evsahibliyi edir. Bütün bunlara isə ölkəmizdə Heydər Əliyev yolunun uğurla davam və inkişaf etdirilməsi nəticəsində nail olunub.

* * *

Azərbaycanın Türkmənistandakı səfirliyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım gününə həsr olunan tədbir keçirilib.

Tədbirdə səfirliyin əməkdaşları, Türkmənistanda yaşayan soydaşlarımız və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın bu ölkədəki səfiri Həsən Zeynalov ümummilli lider Heydər Əliyevin zəngin və mənalı həyat yolundan, xalqımız və dövlətimiz qarşısında xidmətlərindən ətraflı bəhs edib. Müasir Azərbaycan dövlətinin müstəqilliyinin qorunub-saxlanılmasında Heydər Əliyevin əvəzsiz rolunun olduğunu deyən səfir qeyd edib ki, ulu öndərin həyatının hər bir mərhələsinin ətraflı öyrənilməsi və gənc nəsillərə çatdırılması olduqca vacibdir.

Ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşən səfir qeyd edib ki, ümummilli liderlə təmasları onun həyatının ən yaddaqalan xatirələridir. Diplomat ulu öndərin əziz xatirəsinin Azərbaycan xalqının yaddaşında həmişə yaşayacağını, onun hər zaman minnətdarlıqla anılacağını bildirib.

Tədbirdə digər çıxış edənlər də Heydər Əliyevin xalqımızın, Azərbaycandan kənarda yaşayan soydaşlarımızın taleyindəki əvəzsiz rolundan danışıblar. Qeyd olunub ki, hələ sovet hakimiyyəti illərində azərbaycanlı gənclərin müttəfiq respublikaların ən yaxşı ali təhsil müəssisələrində təhsil almaq üçün göndərilməsi, onların ən yaxşı yerlərə təyinat alıb işləmələri məhz Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsi idi.

Tədbirdə ümummilli lider Heydər Əliyevin həyatından bəhs edən bədii-sənədli film nümayiş olunub.

* * *

Xalqımızın ümummilli lideri Heydər Əliyevin əbədiyyətə qovuşmasının 15-ci ildönümü ilə bağlı Azərbaycanın İrandakı səfirliyi xeyriyyə aksiyası keçirib.

Əvvəlcə səfirliyin əməkdaşları Heydər Əliyevin büstü önünə toplaşaraq onun xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Səfirlik ulu öndərin öz fəaliyyətində daim humanizm prinsiplərini əsas tutmasına istinad edərək Tehrandakı "Qədir" Xeyriyyə Müəssisəsinin fiziki və zehni cəhətdən qüsurlu 300 xəstə qızın yaşadığı İmam Əli Kompleksini ziyarət edib. Səfir Bünyad Hüseynov müəssisənin əməkdaşları ilə söhbətində Azərbaycan xalqının tarixən öz mərhəməti və humanizmə sadiqliyi ilə tanındığını vurğulayıb. Həm Sovet İttifaqı, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində insanpərvərliyi, humanizmi, mənəvi dəyərləri, şəfqəti hər şeydən uca tutub. Təsadüfi deyil ki, Heydər Əliyev Fondu da bu gün öz fəaliyyətini məhz ümummilli liderin humanizm prinsiplərinin əsasında qurub. Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva genişmiqyaslı sosial və humanitar layihələr həyata keçirir, həm ölkədə, həm də xaricdə böyük xeyriyyəçilik aksiyaları təşkil edir. Fondun vitse-prezidenti Leyla Əliyeva bayram və əlamətdar günlərdə sağlamlıq imkanları məhdud olan uşaqlarla görüşür, onlar üçün maraqlı - mədəni proqramlar təşkil edir. Heydər Əliyev Fondunun bu tədbirləri cəmiyyətdə humanizmin daha geniş vüsət almasına, insanlarda mərhəmət hissinin aşılanmasına xidmət edir.

"Qədir" Xeyriyyə Müəssisəsinin İmam Əli Kompleksinin Direktorlar Şurasının sədri Hüseyn Zackaniha Azərbaycan səfirliyinin bu aksiyasından təsirləndiyini deyib. Müasir zamanda humanizm və xeyriyyəçiliyə daha çox ehtiyac duyulur. Belə müəssisələrin sakinlərinin yad edilməsi insanda sözlə ifadə olunmayan hisslər yaradır.

"Heydər Əliyev kimi böyük şəxsiyyətin adına göstərilən mehribanlıq müəssisəmizi nurlandırır", - deyən müəssisənin rəhbəri bildirib ki, Ermənistanın Dağlıq Qarabağ bölgəsinə təcavüzü zamanı İranın Qırmızı Aypara Cəmiyyətinin nümayəndəsi kimi Araz çayını keçərək İrana pənah gətirən Zəngilan və Cəbrayıl sakinlərinin Aslandüz körpüsündən Azərbaycana yola salınmasında iştirak edib. Biləsuvar rayonunda İranın qaçqınlar üçün saldığı çadır şəhərciyinə gələn Heydər Əliyev ilə görüşünü xatırlayıb. Onun çadır şəhərciyində yaşayan yaşlı insanlara və uşaqlara necə qayğı ilə yanaşdığının şahidi olduğunu söyləyib. Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafından çox sevindiyini vurğulayıb.

Müəssisənin məsul əməkdaşı Fərhad Sadiqi isə qeyd edib ki, göstərdiyi şücaətə və mahir ordu rəhbəri olduğuna görə imam Əliyə, həmçinin Heydər adı ilə müraciət ediblər. Heydər Əliyev də siyasət meydanında Azərbaycan xalqına xidmət edərkən göstərdiyi qətiyyət və şücaəti ilə insanların qəlbində daim yaşayacaq. Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun qayğıya ehtiyacı olanlara yardımı nümunəvi və təqdirəlayiqdir.

Sonda müəssisədə yaşayanlar üçün ehsan süfrəsi açılıb, onların gündəlik istifadə etdikləri dərmanların bir aylıq xərci və "Made in Azerbaijan" brendi ilə istehsal olunan qida məhsullarından ibarət sovqat təqdim edilib.

* * *

Azərbaycanın Pakistandakı səfirliyinin təşkilatçılığı və Pakistan-Azərbaycan Məzunlar Assosiasiyasının, Xeybər Paxtunxva əyalətinin Hökuməti Qızlar Kollecinin birgə dəstəyi ilə Haripur şəhərinin Saray Saleh qəsəbəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümünə həsr olunan "Qadınların hüquq və imkanlarının artırılmasında liderlərin rolu" mövzusunda seminar keçirilib.

Əvvəlcə hər iki ölkənin dövlət himnləri səslənib, ümummilli lider Heydər Əliyevin xatirəsinə "Qurani Kərim"dən ayələr oxunub.

Ölkəmizin Pakistandakı səfiri Əli Əlizadə Azərbaycanda qadınların sosial, siyasi, iqtisadi və mədəni həyatda artan rolunu vurğulayaraq gender bərabərliyinin Azərbaycanın milli dövlətçilik tarixində əhəmiyyətli nailiyyətlərdən biri olduğunu deyib. Səfir 1918-ci ildə Azərbaycanda vətəndaşlara universal seçki hüququnun verildiyini, bununla da Azərbaycanın müsəlman dünyasında qadınlara seçki hüququ verən ilk dövlət olduğunu diqqətə çatdırıb.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra qadınların cəmiyyətdə ilbəil artan roluna toxunan səfir 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsinin ölkəmizin sosial, siyasi, iqtisadi və mədəni həyatında yeni dönüş nöqtəsi olduğunu bildirib. Azərbaycan qadınlarının problemlərinin həllinə və onların cəmiyyətdəki rolunun genişləndirilməsinə Heydər Əliyevin xüsusi diqqət və qayğı ilə yanaşdığını vurğulayan Əli Əlizadə ulu öndərin rəhbərliyi ilə bu sahədə dövlət tərəfindən həyata keçirilən bütün islahatların Azərbaycan qadınlarının hüquq və imkanlarını daha da artırdığını diqqətə çatdırıb.

Ümummilli liderin əsasını qoyduğu dövlət siyasətinin hazırda da uğurla davam etdirildiyini qeyd edən səfir Prezident İlham Əliyevin qadınların problemlərinin həllini dövlət siyasətinin prioritetləri sırasına daxil etməsinin bu istiqamətdə böyük nailiyyətlər qazanmağa imkan yaratdığını deyib. Səfir Milli Məclisdə qadın deputatların sayının son 20 ildə 4 dəfə artdığını, həmçinin müxtəlif dövlət qurumlarının rəhbərlərinin, iş adamlarının müəyyən hissəsinin xanımlar olduğunu qeyd edib. Azərbaycan dövlətinin və cəmiyyətinin təhsilə xüsusi diqqətlə yanaşdığını və böyük qiymət verdiyini bildirən səfir bu səbəbdən də qadınların 95 faizinin orta məktəbi bitirdiyini, qadınların hüquq və imkanlarının artırılması üçün təhsil və məşğulluğun vacib amil olduğunu diqqətə çatdırıb. O, Pakistan Hökumətinin qadınların hüquq və imkanlarının artırılmasının təşviqi istiqamətindəki fəaliyyətini və bu sahədə həyata keçirilən islahatları da vurğulayıb.

Pakistanın enerji üzrə federal naziri Ömər Əyyub Xan Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xatirəsini hörmətlə andığını, liderlərin rolunu və qadın hüquqlarının əhəmiyyətini vurğulayaraq, bunun ümumi insan hüquqlarının bir hissəsi olduğunu söyləyib. Nazir Azərbaycan Prezidenti İlham Əliyev və Pakistanın Baş naziri İmran Xanın müdrik və vətənpərvər rəhbərliyi ilə hər iki ölkənin daha da inkişaf edəcəyinə əminliyini ifadə edib. O, bu prosesdə Pakistan və Azərbaycan qadınlarının əhəmiyyətli rol oynayacağına ümidvar olduğunu bildirib.

Pakistan-Azərbaycan Məzunlar Assosiasiyasının həmtəsisçisi Qeysər Nəvab xalqlarımız və hökumətlərimiz arasındakı səmimi və qardaşlıq münasibətlərindən danışıb, iki ölkənin gəncləri və qadınları arasındakı əlaqələrin əhəmiyyətini vurğulayıb, gənclərin millətin gələcəyi olduğunu və qadınların hüquq və imkanlarının artırılmasının önəmini qeyd edib.

Seminarın keçirildiyi kollecin direktoru, professor Azra Yasmin Azərbaycanın sosial həyatı və mədəniyyəti barədə fikirlərini bölüşüb, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müasir müstəqil Azərbaycanda qadınların çox yüksək hüquqlara malik olduğunu və bu hüquqları bütün sahələrdə reallaşdırmağı bacardıqlarını bildirib. O, həmçinin Pakistan cəmiyyətində qadınların artan rolunu əks etdirən faktlara toxunub, rəhbərlik etdiyi kollecdəki nizam-intizamın və keyfiyyətli təhsilin Pakistan qadınlarının istedadının bariz nümunəsi olduğunu vurğulayıb.

Sonda tələbələrin sualları cavablandırılıb, həmçinin Azərbaycan-Pakistan münasibətlərinə dair videomateriallar nümayiş etdirilib.

* * *

Dekabrın 12-də Rusiya Federasiyasının Həştərxan şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Əvvəlcə Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən S.Morozov, beynəlxalq və xarici iqtisadi əlaqələr naziri vəzifəsini icra edən D.Afanasyev, vilayətin iş adamları, diaspor üzvləri, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının Həştərxan bölməsinin təmsilçiləri, ictimaiyyət nümayəndələri və həmvətənlərimiz ulu öndər Heydər Əliyevin Həştərxan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, dahi şəxsiyyətin abidəsi önünə əklillər, gül dəstələri qoyublar.

Sonra Həştərxan şəhərindəki Heydər Əliyev adına 11 nömrəli orta məktəbdə anım mərasimi keçirilib. Əvvəlcə məktəbin foyesində ümummilli lider Heydər Əliyevin büstü önünə tər güllər düzülüb, ulu öndərin əziz xatirəsi ehtiramla yad edilib.

Mərasimdə çıxış edənlər Heydər Əliyevin həyat və fəaliyyəti, ulu öndərin istər Sovet İttifaqı dövründə, istərsə də müstəqillik illərində Azərbaycan tarixində, o cümlədən Azərbaycan-Rusiya münasibətlərinin inkişafında əvəzsiz rolu haqqında danışıblar. Bildirilib ki, dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri var. Bu gün Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı, onun dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin zəngin siyasi-ictimai irsinin davam etdirilməsinin, ideyalarının yaşamasının nəticəsidir.

* * *

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar ölkəmizin Misirdəki səfirliyi tərəfindən silsilə tədbirlər keçirilib.

Səfirliyimizin əməkdaşları, "Vətənpərvər" - Azərbaycanın Misirdəki Diaspor Təşkilatları Birliyinin sədri, burada yaşayan, işləyən, təhsil alan azərbaycanlılar, şəhər meri və meriyanın nümayəndələri, jurnalistlər Misirin Qəlyubiyyə əyalətinin Qanatir şəhərindəki Misir-Azərbaycan Dostluq Parkında mədəniyyət və təhsil ocağını ziyarət edib, orada qurulan Azərbaycan və ulu öndər Heydər Əliyevin guşələri ilə tanış olublar.

İştirakçılar ümummilli lider Heydər Əliyevin Azərbaycan-Misir Dostluq Parkında ucaldılmış heykəlini də ziyarət edib, önünə əklil qoyaraq ulu öndərin xatirəsini ehtiramla anıblar.

Tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz roluna toxunub, ümummilli liderin uzaqgörən siyasəti nəticəsində ölkəmizin qısa müddətdə regionun aparıcı və ən güclü dövlətinə çevrildiyini diqqətə çatdırıblar. Həmçinin iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğu vurğulanıb.

Qeyd edək ki, səfir Tural Rzayevin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında məqaləsi Misirin nüfuzlu və geniş oxucu kütləsinə malik qəzetlərində yayılıb.

* * *

Dekabrın 12-də Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasındakı səfirliyində ümummilli lider Heydər Əliyevin vəfatının 15-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.

Tədbirdə Vyetnamda səfərdə olan Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti, Vyetnam Kommunist Partiyasının, Xarici İşlər Nazirliyinin və digər dövlət qurumlarının rəsmiləri, habelə Azərbaycan təhsil ocaqlarının vyetnamlı məzunları və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Azərbaycanın Vyetnamdakı səfiri Anar İmanov ümummilli lider Heydər Əliyevin həyat yolu və fəaliyyəti barədə ətraflı məlumat verib, ulu öndərin Azərbaycan xalqının taleyində əvəzsiz rol oynadığını bildirib. Qeyd edib ki, ümummilli lider Heydər Əliyev xalqımızı xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib.

Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə apardığı uzaqgörən daxili və xarici siyasətin nəticəsi olaraq ölkəmizin nüfuzu artıb, hərtərəfli inkişafa nail olunub. Səfir, həmçinin Heydər Əliyevin Azərbaycanla Vyetnam arasında əməkdaşlığın qurulmasındakı rolundan bəhs edib, bu xüsusda ulu öndərin 1983-cü ildə Vyetnama səfərinin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Qeyd edilib ki, hazırda ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyanın ən sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilib.

Tədbirdə iştirak edən Vyetnam Milli Assambleyasının deputatı, Elm və Texnologiyalar Assosiasiyaları Birliyinin vitse-prezidenti, Vyetnam-Azərbaycan Dostluq Qrupunun sədri Nghiem Vu Khai Heydər Əliyevin şah əsəri olan Azərbaycanın bugünkü sürətli inkişafının canlı şahidi olduğunu söyləyib. O, ulu öndərin Vyetnamın müharibədən sonrakı quruculuq işlərinə verdiyi töhfənin xalqının yaddaşından heç zaman silinməyəcəyini vurğulayıb. Nghiem Vu Khai Heydər Əliyevin dahi şəxsiyyət, tanınmış siyasətçi və müdrik dövlət başçısı kimi özündən sonra böyük irs buraxdığını deyib. O, Vyetnam xalqının Heydər Əliyevi hər zaman özü üçün böyük dost hesab etdiyini və onun xatirəsini dərin hörmətlə yad etdiyini diqqətə çatdırıb.

Tədbir çərçivəsində Heydər Əliyevin həyatı, siyasi fəaliyyəti və 1983-cü ildə Vyetnama rəsmi səfərini əks etdirən fotosərgi nümayiş etdirilib. Eyni zamanda, yazıçılar Hüseynbala Mirələmovun və Viktor Andriyanovun "Görkəmli adamların həyatı" seriyasından səfirliyin təşəbbüsü ilə Vyetnam dilində nəşr olunan "Heydər Əliyev" kitabı tədbir iştirakçılarına təqdim olunub.

* * *

Sankt-Peterburqun tanınmış ictimai xadimləri, yaradıcı ziyalıları və Azərbaycan diasporunun nümayəndələri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini anıblar.

Böyük siyasi və dövlət xadimi Heydər Əliyevin xatirə lövhəsi qarşısına toplaşanlar ulu öndərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov ümummilli liderin həyat və fəaliyyətindən söhbət açıb. O bildirib ki, Heydər Əliyev müasir müstəqil Azərbaycanın qurucusudur. Heydər Əliyevi Rusiyada yaxşı tanıyırlar. Rusiyalılar ölkə iqtisadiyyatının və mədəniyyətinin inkişafında onun töhfəsini xatırlayır və yüksək qiymətləndirirlər.

Sankt-Peterburqda Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri Vaqif Məmişov və başqaları çıxış edərək Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, dünya miqyasında ölkənin nüfuzunun artmasında ulu öndərin rolundan danışıblar.

# Vladimir Putin Heydər Əliyevə sovet dövrünün sonunda modernləşmənin lideri kimi dərin və səmimi hörmət bəsləyirdi

Postsovet dövründə yüksək hakimiyyət dairələrinin pərdələdiyi siyasi müəmmalardan biri - Vladimir Putin ilə Heydər Əliyevin münasibətləri məsələsi hələ də sona qədər aydınlaşdırılmayıb. Belə adlandırılan şəxsiyyətlərarası "kimya" haradan əmələ gəlib və bu, nə deməkdir? 2000-ci il prezident seçkilərində Vladimir Putinin qələbəsindən sonra Moskva ilə Bakı arasında müəyyən məsafə gözlənilməklə uzunmüddətli siyasi yaxınlaşmanın nə üçün mümkün olmasını necə anlamaq, əslində, bu sualın cavabından asılıdır. Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun elmi işçisi Aleksandr Karavayev "Vestnik Kavkaza" agentliyinin suallarına cavab verib.




### Fabula

İyirmi ilə yaxındır ki, biz Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin "incə şəkildə" nizamlanmasının bəhrələrini müşahidə edirik. Postsovet məkanı üçün unikal sayılan bu qədər uzunmüddətli qarşılıqlı rəğbətin səbəblərini müxtəlif modulyasiyalarla aşağıdakı 3 amildən ibarət hesab etmək olar: elitaların ideya yaxınlığı - hər iki ölkə üçün ortaq olan mühafizəkarlığa ümid bəslənməsi; birgə investisiya-iqtisadi və digər biznes-layihələrin inkişaf etdirilməsi yolu ilə "qeyri-liberal demokratiya" modelinin qarşılıqlı dəstəklənməsi; varisliyin qorunub saxlanması - dünyəvi "rəngli inqilab" təhdidləri potensialının artması, Cənubi və Şimali Qafqazın hərbiləşdirilmiş gizli mühitindən islamçıların gözlənilməz hücumları fonunda xüsusi xidmətlərin sıx qarşılıqlı fəaliyyəti. Bəri başdan qeyd edək ki, qarşılıqlı fəaliyyətin tapılmış formulu Qarabağ böhranı baryerini üstələyir.

Bu qərarlaşmış qaydalara və ya elitlərarası ali səviyyəli kommunikasiyanın qeyri-aşkar modeli əsas götürülməklə son 20 ildə ikitərəfli münasibətlərin cari gündəliyindəki bir sıra mürəkkəb məqamlar (məsələn, Xəzərin resurslarının mənimsənilməsinə qərb şirkətlərinin yaxın buraxılması və ya Qəbələ RLS barədə qarşılıqlı fəaliyyətin xarakteri) xüsusi xarakter daşıyır və qarşılıqlı etimadın böhranına çevrilmir. Digər tərəfdən, məsələn, İlham Əliyevin 2015-ci ildə Şərq tərəfdaşlığına dair Riqa Sammitində iştirakdan imtina etməsi Moskva üçün onunla kompromislər modelinin saxlanması markerinə çevrildi, eyni zamanda, Krım məsələsində Bakı, təbii ki, heç bir fikir söyləmədən Kiyevlə həmrəy olduğunu göstərdi.

### Liderlər

Rusiya və Azərbaycan bürokratiyasının tarixi əsasları ortaqdır. Söhbət çox vaxt "Andropov çağırışı" adlandırılan idarəçilər nəslindən gedir. Onlar əvvəlcə - 1960-cı illərdə hakimiyyətdə bolşeviklər nəslini əvəz etdilər (Azərbaycan üçün bu, Vəli Axundovdan Heydər Əliyevə qədər olan dövrü əhatə edir), sonra isə - 1990-cı illərdə yeni sərt rəqabət şəraitində hakimiyyəti postsovet kapitalistlərinin və siyasi idealistlərin əlindən aldılar. Müxtəlif sovet respublikalarında idarəçiliyin və hakimiyyətin müxtəlif sahələrindən olan bu insanlar eyni dalğaya köklənmişdi - onların məqsədi 1980-ci illərin ortalarında sovet iqtisadiyyatında və ümumiyyətlə, İttifaqda həyatın bütün sahələrində dərin modernləşmə və transformasiya aparmaqdan ibarət idi. Heydər Əliyev də onlara aid idi. Üstəlik, o, həmin dalğanın liderlərindən biri idi, bu haqda yetərincə çox yazılıb. Vladimir Putin xeyli dərəcədə Andropovun uğursuz modernləşmə ideyalarının varisidir. Əslində, Heydər Əliyev ilə Vladimir Putin arasında qarşılıqlı anlaşma, onların baxışlarının üst-üstə düşməsi bu zəmin üzərində baş verdi. Bu, hər ikisinə yaxşı məlum idi.

Onların münasibətləri, həyatının uzun illərini kəşfiyyat və təhlükəsizlik sistemində xidmətə sərf etmiş bütün insanları birləşdirən peşə qardaşlığından əlavə, həm də buna əsaslanırdı ki, Vladimir Putin Heydər Əliyevə sovet dövrünün sonunda (1970-1980-ci illərdə) modernləşmənin lideri kimi dərin və səmimi hörmət bəsləyirdi. Əlbəttə, Heydər Əliyev bunu bilirdi. Hər ikisi texnokratlar olan Vladimir Putin ilə Heydər Əliyevin bu mental əlaqəsini nəzərə alsaq, burada əsas məsələ mühafizəkarlıqdır. Dərhal aşkar edilməmiş bu intonasiya tədricən hakim elitanın bütün fəaliyyətinə nüfuz edirdi.

Rusiya Prezident Administrasiyasının keçmiş rəhbəri Sergey İvanovun çıxış və məqalələrinin tezislərini onun həmkarı, Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin məqalələri ilə müqayisə edin. Onlar hər ikisi dövlətin dünyəvi xarakteri qorunub saxlanmaqla mühafizəkar dəyərlərin əhəmiyyətini vurğulayır, hər ikisi qlobal dünyada ekspansiya şəraitində dövlətin və cəmiyyətin müxtəlif səviyyələrində suverenliyi qoruyub saxlamağın çətin olması barədə danışır. Yeri gəlmişkən, xatırladaq ki, Ramiz Mehdiyev həm ikitərəfli əsasda, həm də MDB ölkələrinin Təhlükəsizlik Şuraları katiblərinin illik sammitlərinin iştirakçısı kimi daim Rusiya Təhlükəsizlik Şurasının rəhbərləri ilə əlaqə saxlayır. Bu, iki ölkənin elitalarının ideya yaxınlığını nümayiş etdirən daha bir platformadır. Bu mənada yeni inqilabi dalğanın liderləri qərarlaşmış kommunikasiya qaydalarını və maraqların amanabənd tarazlığını pozanlar, məsələn, Ermənistanın Baş naziri Nikol Paşinyan, hətta iki ölkə arasında münasibətlərin sabit xarakterinin qorunub saxlanması ssenarisinə əməl edildikdə belə, Putin üçün bu qədər yaxın həmfikirlər olmayacaqlar.

### Sistem

Ötən 16 ildə əslində az şey dəyişib. Vladimir Putin və hakimiyyət sükanını öz atasından qəbul etmiş İlham Əliyev bu gün də öz ölkələrində hakimiyyət korporasiyası üçün oriyentirlərdir. Əlbəttə, bu oriyentirlərin effektivliyi bürokratik sistemlərin korrupsiyadan başlamış sistemi parçalayan digər meyillərə qədər müxtəlif patologiyalara müqavimət göstərmək qabiliyyətindən asılıdır. Azərbaycan ilə Rusiyanın münasibətlərində liberal Qərb layihəsinin kənar təzyiqi problemi də var, bu layihəyə güclü rəqiblər lazım deyil. Lakin son onillikdə hədsiz güclənmiş "yanar Cənub" problemi də var - Qərbin fasiləsiz ekspansiyasından irəli gələn islamçı reaksiyanın doğurduğu hərc-mərclik. Elitanın bu şəraitdə davam gətirməsi üçün cəmiyyət tərəfindən dəstəklənən mənəvi səfərbərlik tələb olunur.

Əlbəttə, "soyuq müharibə" illərində Sovet-Amerika qarşıdurması dövründə olduğu kimi sanksiyaların cavabında Qərb dünyası ilə ticari-iqtisadi əlaqələri azaltmaq, texniki modernləşmə təcrübəsi kanallarını bağlamaq ağlabatan deyil. Qərb layihəsinin bu baxımdan dəyərli olması şəksizdir. Vaxtilə Yuri Andropov da bunu deyirdi. Sadəcə, indi biz hansı Qərblə münasibətdə olduğumuzu daha dəqiq anlayırıq. "Qüruba gedən Avropa"nın mənəvi-əxlaqi relyativizm marşrutu ilə ənənəvi, mahiyyət etibarilə mühafizəkar dəyərlərin ziyanına, ailənin və dövlətin maraqlarının ziyanına olaraq şəxsi və siyasi azadlıqların maksimallaşdırılması kimi naməlum və təhlükəli məkana yuvarlandığını görürük.

Bu fonda Rusiya ilə Azərbaycanın həmrəyliyinin açıq-aydın güclənməsi universal sosial-texniki modernləşmə prinsipləri ilə mənəviyyat, ailə dəyərlərinin, sosial mütəşəkkilliyin daha dürüst şaquli üsulu kimi dövlətə hörmətin sintezi kimi başa düşülən yeni "alternativ Qərb" layihəsi orbitin mərkəzinə çevrilir.

Bu yeni layihə genişləndikcə Avratlantik dünyanın həm bizim ölkələrə, həm də Böyük Avropa - Avrasiya inteqrasiya layihələrinin siyasi-iqtisadi və ideya qovuşuğunda olan digər dövlətlərə münasibətdə mövqeyi daha da sərtləşəcək.

"Qoşulmama hərəkatı"nın iştirakçısı olan Azərbaycan formal baxımdan bu birliyin baxışlarının tərəfdarıdır. Bakı praktiki olaraq dinamik çoxvektorluluğa riayət edir, lazım gəldikdə bu və ya digər istiqamətin üstünlüklərindən öz xeyrinə istifadə edir, böyük dövlətlərlə kəskin münaqişələrə qoşulmamağa çalışır. Bu, Heydər Əliyevin xarici siyasət irsinin aspektlərindən biridir.

Azərbaycan Avrasiya İqtisadi İttifaqına qoşulmadan inteqrasiya birliyinin ən sıx müttəfiqi olub. Əslində Bakı postsovet dövlətləri arasında Astana və Minsk üçün Rusiyadan sonra əsas tərəfdaşdır. İlk baxışda "eyni bazarlar"a neft və qaz ixracı məsələsində Rusiya ilə fərqli mövqelər tutan neft-qaz konsernləri - Azərbaycanın SOCAR və Rusiyanın "Qazprom", "Rosneft" və "Lukoyl" səmərəli birgə layihələrdə ümumi təmas nöqtələri tapırlar. Bir sıra başqa məsələlərdə də buna oxşar "həmrəy məqsədlər" görmək mümkündür. Bu, başqa məsələdir ki, həmin həmrəylik heç də həmişə aşkar və ya kütləvi şəkildə afişa edilmir.

Əlbəttə, Rusiya ilə Azərbaycanın ölçüləri, yumşaq desək, müqayisə edilə bilməz. Beynəlxalq məsələlərin gündəliyində ciddi fərqlər var. Sahəvi və korporativ maraqlar fərqlidir, Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar fikir ayrılıqları mövcuddur. Lakin Moskvanın və Bakının baxışlarında fərqli və ortaq cəhətlərin balansı ümumi vektorun maraqlı mozaikasını yaradır. Bizim - Rusiyada və Azərbaycanda yaşayan insanların həqiqətən bəxtimiz gətirib ki, bizim müasirlərimiz Heydər Əliyev və Vladimir Putin bunu edə biliblər.

**AZƏRTAC**

# HEYDƏR ƏLİYEV milli əfsanəyə çevrilən liderdir

Elə liderlər var ki, onların adı əbədi olaraq tarixdə qalır. Mənsub olduğu millətin tarixini yaradan liderlər də var. Heydər Əliyev məhz müasir Azərbaycanın tarixini yaradan liderdir. Onun adı dövrünün əsl əfsanəsi, dövlət quruculuğu kimi tarixi vəzifəni öz üzərinə götürə bilən qüdrətli dövlət başçısı, fədakar insan və nadir şəxsiyyət kimi tarixin səhifələrinə yazılıb. AZƏRTAC xəbər verir ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MQİMO) professoru Vladimir Suxoyun bu fikirləri "Moskva-Bakı" portalı üçün yazdığı eksklüziv məqalədə yer alıb. AZƏRTAC həmin məqaləni oxucuların diqqətinə təqdim edir.




- Azərbaycanın 1960-cı illərin sonundan XXI əsrin əvvəlinədək olan 35 illik tarixi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun siyasi məharəti və yüksək insani keyfiyyətləri gənc dövlətə öz dayaqlarını möhkəmləndirmək və XXI əsrə müstəqil dövlət kimi qədəm qoymaq imkanı verdi. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycan naminə bütün məsuliyyəti çiyinlərində daşıyıb, öz həmfikirlərini ətrafına toplayaraq onlarla birlikdə çətin və ciddi maneələri aşıb, hazırda müstəqil Azərbaycan adlanan qüdrətli dövləti yaradıb.

Azərbaycançılıq - öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir...

## HEYDƏR ƏLİYEV

Heydər Əliyev 1969-cu il iyulun 4-də Sovet Azərbaycanının rəhbəri oldu. O, respublika kommunist partiyası mərkəzi komitəsinin birinci katibi təyin edildi. "Modernləşmə" onun həmin dövrdəki fəaliyyətini dəqiq səciyyələndirən sözdür. Respublikanın rəhbəri olduqdan sonra o, uzun müddət SSRİ-nin xammal bazası və uzaq əyaləti hesab olunan Azərbaycanda dərin dəyişikliklər prosesini başlatdı. Heydər Əliyev neft və neftayırma sənayesini kökündən yenilədi və modernləşdirdi, bir sıra zavodların, müasir hidroelektrik stansiyasının, toxuculuq fabrikinin tikintisi təşəbbüsünü irəli sürdü, yüksək texnologiyalı gil-torpaq istehsalı sahəsini yaratdı. Azərbaycanda sənaye sahəsində həmin illərə aid yeni tikililərin siyahısı xeyli uzundur: "Ulduz" Elektrik Cihazları zavodu, Bakı Məişət Kondisionerləri zavodu, Şampan Şərabları zavodu, Bakı Dərin Özüllər zavodu, "Elektroterm" zavodu, Elektron Hesablayıcı Maşınlar zavodu, Sumqayıt Kompressorlar zavodu, Gəncə "Büllur" zavodu, "Azon" və "Alunit" müəssisələri, Lənkəran Konserv zavodu...Yeni müəssisələrin respublikanın bölgələrində tikilməsini də xüsusi qeyd etmək lazımdır.

Onun Azərbaycana rəhbərlik etdiyi dövrdə əvvəl mövcud olan gerilik qısa müddətdə aradan qaldırıldı və iqtisadiyyatda böyük nailiyyətlər əldə olundu. Ölkə ümumittifaq miqyasında qabaqcıl yerlərə çıxdı. Bu illər ərzində Azərbaycanın sənaye potensialı iki dəfədən çox artdı. Şəhər və kəndlərin siması dəyişdi. On beş müttəfiq respublikadan yalnız Rusiya və Azərbaycan SSRİ-nin dövlət büdcəsindən subsidiyalar almadan yaşayırdı. Heydər Əliyev ətrafındakı insanlardan özünün malik olduğu yüksək təşkilati bacarıqları - dəqiqlik, nizam-intizam, məhsuldar və səmərəli iş tələb edirdi. O, heç vaxt kabinetdən rəhbərlik etməyə üstünlük vermirdi. Heydər Əliyev tez-tez neftayırma zavodlarının sexlərində, laboratoriyalarda, limanlarda və tikinti meydançalarında olur, iş prosesləri haqqında yerində məlumat alırdı. O, öz xatirələrində həmin illəri həyatının ən yaxşı dövrü adlandırıb: "Bəzən hətta iş vaxtı qurtardıqdan sonra da evə getmirdim və oturub fikirləşir, respublikamızda vəziyyətin daha da yaxşılaşdırılması üçün yeni planlar qururdum. Götür-qoy edirdim ki, tutduğum vəzifənin imkanlarından istifadə edərək xalqım üçün hansı faydalı işləri görə bilərəm".

1982-ci ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. İlk dəfə Azərbaycanın nümayəndəsi Sovet İttifaqının rəhbərlərindən biri oldu. Heydər Əliyevin Moskvada işlədiyi dövrdə gördüyü işlərin hamısını sadalamaq çətindir. Yəqin ki, onun üçün ən əziz olan işlərdən biri Baykal-Amur magistralının tikintisi idi. O vaxt azərbaycanlılar BAM-ın, demək olar ki, bütün obyektlərində işləyirdilər. Azərbaycanlı inşaatçılar qəsəbələr salır, vağzal kompleksləri tikirdilər. Anqoya qəsəbəsi Heydər Əliyevin bilavasitə iştirakı ilə salınıb. Yeri gəlmişkən, o, sovet rəhbərləri arasında ilk dəfə olaraq BAM-ın bütün məsafəsini qət etmişdi. 2008-ci ildə Anqoya vağzalına Heydər Əliyevin adının verilməsi tamamilə qanunauyğundur.

1987-ci ilin oktyabrında Sov.İKP MK siyasi bürosunun yürütdüyü siyasi kursa etiraz əlaməti olaraq Heydər Əliyev tutduğu vəzifələrdən istefa verdi. Bakıya böyük sayda sovet qoşunları kontingentinin yeridilməsi və çoxsaylı insan tələfatı ilə nəticələnən 1990-cı il 20 Yanvar faciəsindən sonra o, Azərbaycan xalqına qarşı cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılması tələbi ilə çıxış etdi. O dövrdəki SSRİ rəhbərliyinin siyasətinə etiraz əlaməti olaraq Heydər Əliyev 1991-ci ildə Sovet İttifaqı kommunist partiyasının sıralarını tərk etdi.

1990-cı ildə Azərbaycana qayıdan Heydər Əliyev Bakıda, sonra isə Naxçıvanda yaşadı. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi. 1993-cü ilin may-iyun aylarında baş vermiş dərin hakimiyyət böhranı nəticəsində Azərbaycan vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi qarşısında qaldı. Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə qayıtması tələbi ilə çıxış etdi. O, Azərbaycan Ali Sovetinin sədri seçildi.

1993-cü il oktyabrın 3-də isə Heydər Əliyev ümumxalq səsverməsi nəticəsində müstəqil Azərbaycanın Prezidenti oldu və 1998-ci ildə yenidən bu vəzifəyə seçildi.

On illik prezidentliyi dövründə Heydər Əliyev respublikada radikal islahatlar apardı və iqtisadiyyatı çökmüş ölkənin xarabalıqlarında dirçəltdiyi və inkişaf etdirdiyi qüdrətli dövləti millətinə miras qoydu. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi. Heydər Əliyev hakimiyyətə praqmatik və balanslaşdırılmış xarici siyasət kursu ilə gəlmişdi. Bu siyasi kurs ABŞ və Avropa İttifaqı ilə konstruktiv münasibətləri, həmçinin Türkiyə, Rusiya və İranla müdrik tərəfdaşlıq əlaqələrini ehtiva edirdi.

Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu. O, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı.

1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi" - əcnəbi neft şirkətləri ilə hasilatın pay bölgüsünə dair analoqu olmayan çoxmilyardlıq saziş imzalandı. Bu, keçmiş Sovet İttifaqı məkanında bu cür ilk və ən iri kontrakt olub. "Əsrin müqaviləsi" Azərbaycan üçün həyati əhəmiyyətə malik olub, eyni zamanda, ölkədə daxili sabitliyin bərqərar olmasında və xarici siyasətdə uğurlar qazanılmasında da həlledici rol oynayıb. Kontraktın imzalanması mərasimində Heydər Əliyev bəyan edib: "Bu müqavilənin hazırlanmasında və imzalanmasında iştirak etdiyim üçün özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti yaxşı dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcək".

Bakı-Tbilisi-Ceyhan layihəsinin təşəbbüskarı olan Heydər Əliyev Azərbaycana böyük məbləğlərdə Qərb sərmayəsi cəlb etdi və bunun nəticəsində yeni iş yerləri açıldı, bir neçə yataqların inkişafına nail olundu. Heydər Əliyev Azərbaycanın postsovet məkanında ən yüksək səviyyədə görünməmiş iqtisadi inkişafını təmin etdi.

Bununla yanaşı, Heydər Əliyev 1995-ci ildə qəbul olunmuş yeni Konstitusiyanın hazırlanması təşəbbüsü ilə çıxış etdi. "...Bu Konstitusiyanın maddələrinə əməl edərək xalqımız Azərbaycan Respublikasının müstəqilliyini əbədiləşdirəcək. Bizim vəzifəmiz Konstitusiyanın verdiyi təminatlardan, qanunvericilik əsaslarından səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət qurmaq, vətəndaşların hüquq və azadlıqlarını müdafiə etməkdir", -deyə Heydər Əliyev vurğulayırdı.

Heydər Əliyevin "Azərbaycan xalqı" məfhumu ilə zənginləşdirdiyi fəlsəfə müstəqil Azərbaycanın müasir dünyada yerini müəyyən etdi, milli dövlətçiliyin ideoloji əsası kimi azərbaycanlıların möhkəm həmrəyliyinin əsasını qoydu. O deyirdi: "Azərbaycançılıq - öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Heydər Əliyev öz ölkəsini və onun tarixini qəlbən sevirdi. O, tarixi yaxşı bilirdi və başa düşürdü ki, təkcə tarixi hadisələr deyil, müasir dövrdə baş verənlər də əhəmiyyətlidir, çünki gələcək nəsillər tariximizin bütün mərhələlərini qiymətləndirəcək. Heydər Əliyev çox gözəl bilirdi ki, iqtisadi inkişafla yanaşı, müstəqilliyin əsas amillərindən biri də mədəniyyətdir. Prezident Azərbaycanın mədəni irsini dəstəkləyir və haqlı olaraq hesab edirdi ki, məhz bu amil ölkənin milli kimliyinin bünövrəsini təşkil edir. Milli kimlik hissinin qüvvətli olması millətə hətta ətrafdakı siyasi güclərin təzyiqinə məruz qaldığında və varlığına təhlükə yarandığında belə, birləşmək imkanı verir.

Həyatın bütün sahələrində səmərəli və məqsədyönlü fəaliyyətlə yanaşı, Heydər Əliyev ölkədə təhsilin səviyyəsinin yüksəlməsinə də böyük diqqət yetirirdi. Böyüməkdə olan nəslin təlim-tərbiyəsi həmişə uzaqgörən liderin dövlət proqramının əsas müddəalarından biri olub.

Söz onun ən güclü silahı olub. Heydər Əliyev sözdən həm natiq, həm diplomat, həm də incə psixoloq kimi istifadə edirdi. Onun sözləri tələffüz tərzi ən yüksək incəsənət səviyyəsində olurdu. Heydər Əliyev özünün parlaq natiqlik istedadını müxtəlif yerlərdə etdiyi bütün çıxışlarında büruzə verirdi. İnamlı və dəqiq nitq söyləyirdi. Məhz onun sözləri həyatı, tarixi dəyişən amil oldu. Xalqla ünsiyyət zamanı deyilənlərin hər bir vətəndaş tərəfindən məhz ona ünvanlanmış müraciət kimi qəbul edilməsinə nail olmaq hər siyasətçiyə müyəssər olmur. Bu, ona məxsus olan xüsusiyyət idi. Eyni zamanda, Heydər Əliyevdə həmsöhbətinin əhvali-ruhiyyəsində ən kiçik nüansları belə dəqiqliklə sezmək kimi heyrətamiz bacarıq, buna əlavə olaraq, hər bir kəsin ağrı-acısına və həyəcanına nüfuz etmək üçün çox böyük daxili mərifət hislərinin ona bəxş etdiyi qabiliyyət vardı. Ona məxsus olan daha bir mənəvi keyfiyyət - yüksək intuisiya sayəsində dahi siyasətçi Azərbaycan xalqı üçün ən taleyüklü məqamlarda son dərəcə düzgün qərarlar qəbul edə bilirdi.

İstedad və güclü iradə Heydər Əliyev şəxsiyyətinin əsas məziyyətləri idi. Onda ilk növbədə özünə qarşı yüksək təşkilatçılıq və tələbkarlıq vardı. Heydər Əliyev hər bir insanı, geniş kontekstdə "xalq" və "millət" məfhumunun birləşdirdiyi fərdlərin istəklərini dinləmək və başa düşmək bacarığına malik idi. Böyük siyasətçinin peyğəmbərcəsinə uzaqgörənliyi və sərkərdə hünərinin vəhdəti onun şəxsi keyfiyyətlərinin mühüm cəhəti idi. Dərin savad və təbiətin bəxş etdiyi incə estetik hisləri də bura əlavə etmək lazımdır. Alicənab və ədavətsiz insan olan Heydər Əliyev bilmədən səhvə yol verən insanları bağışlayır, lakin nadan, öz mənfəətini güdən və fərsizlərə güzəşt etmirdi. Bir siyasətçi kimi o, demokratizmi sərt tələblərlə bir araya sığdıra bilirdi.

Heydər Əliyevin zəngin siyasi təcrübəsi və şəxsiyyətinin miqyası ona imkan verirdi ki, ölkənin qarşılaşdığı bir çox böhranlı vəziyyətlərdən öz xalqını uğurla çıxarsın. O, başqalarını ruhlandırmaq bacarığına malik idi və adama elə gəlirdi ki, Prezident məhz özünün unikal xarizması sayəsində ölkəni idarə edir. Heydər Əliyev güclü siyasətçi üçün vacib olan fenomenal şəxsi keyfiyyətlərə - nadir rast gəlinən yaddaş, qüvvətli arqument və insanları, o cümlədən rəqiblərini öz düşərgəsinə cəlb etmək bacarığına malik idi. Onun zəhmi hər yerdə hiss olunur, xarizması isə dövrünün bir çox dahi intellektual insanlarını cəzb edirdi.

Heydər Əliyev necə insan idi? O, hər şeydən əvvəl, yüksək ziyalı idi. Özünəinam hissi, yüksək ləyaqəti və eyni zamanda, çox az adamlara xas olan heyrətamiz sadəliyi onun əsas məziyyətləridir.

Tale elə gətirib ki, Heydər Əliyev mənim 1986-cı ildə ABŞ-a ilk jurnalist ezamiyyətimə xeyir-dua verib. Mən onun səmimiliyinin və hər şeydən yaxşı məlumatı olduğunun, öz fikirlərini necə dəqiq ifadə etdiyinin şahidi oldum. Heydər Əliyev instinktiv olaraq jurnalistikanın əhəmiyyətini izah edir, amerikanistika barədə özünəməxsus tərzdə mülahizələr yürüdürdü.

...O, xeyir-duaları ilə məni müxbir işləmək üçün Nyu Yorka göndərib, mən isə, elə alındı ki, 2003-cü ildə Klivlend aeroportunda Heydər Əliyevin tabutunu yola saldım. Tabut dekabrın 14-də Bakıya göndərilirdi. Həmin il dekabrın 12-də səhər saat 10-da Heydər Əliyev Ohayo ştatındakı Klivlend Kardioloji Mərkəzində vəfat edib. Azərbaycan Prezidentini avqustun əvvəlində Rusiya FHN-nin təyyarəsi ilə ağır xəstə vəziyyətdə oraya gətirmişdilər. Amerika həkimləri Heydər Əliyevin xəstəlik tarixçəsini yaxşı bilirdilər, bundan əvvəl həmin mərkəzdə onu uğurlu əməliyyat etmişdilər. O vaxt Birləşmiş Ştatlarda işləyən Rusiya müxbirləri Heydər Əliyevin yenidən xəstəliyə qalib gələcəyinə və sağalacağına böyük ümidlər bəsləyirdilər. Əfsuslar olsun ki, belə olmadı.

Mən uzun müddət təyyarə üfüqdə nöqtə kimi titrəyib əriyənədək gözümü səmadan ayırmadım. Heydər Əliyev doğma Azərbaycana, Bakının Fəxri xiyabanına son mənzilə yola salınırdı...

# Malik Ayub SUMBAL: "Azərbaycan Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya əsasında inkişaf edir"

Çin Mərkəzi Televiziyasının (CCTV) beynəlxalq icmalçısı, siyasi analitik Malik Ayub Sumbalın İtaliyanın nüfuzlu "İl Nodo di Gordio" beyin mərkəzinin saytında ümummilli lider Heydər Əliyevin müasir müstəqil Azərbaycanın inkişafındakı xidmətlərindən bəhs edən yazısı yerləşdirilib. AZƏRTAC yazını təqdim edir.

* * *

Dekabrın 12-si dahi lider və Sovet İttifaqının dağılmasından sonra arzusu müasir və müstəqil Azərbaycanı qurmaq olan ulu öndər Heydər Əliyevin vəfatının 15-ci ildönümü günüdür.

Heydər Əliyevin öz xalqı üçün apardığı mübarizənin nəticəsində Azərbaycan dünya arenasında müasir və mədəni ölkəyə çevrilib.

Ölkənin Cənubi Qafqaz regionunda sevgi mesajı yayaraq sülh və harmoniya ilə multikultural və çoxdinli bir cəmiyyətə çevrilməsi ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsidir.

Bakıdan yayılan sülh və stabillik çağırışı Azərbaycandan başqa heç bir Cənubi Qafqaz ölkəsindən eşidilməyib.

Azərbaycan ümummilli lider Heydər Əliyevin öz xalqı üçün qoyduğu irsin və prinsiplərin əsasında yaşayır və yaradır. Heydər Əliyev doktrinası müasir Azərbaycanda praktiki olaraq uğurla həyata keçirilir və onun burada necə səmərəli təcəssüm tapdığını görmək mümkündür.

Dahi Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyasında Azərbaycanın Qərb və İslam dünyası ilə, qədim və müasir mədəniyyətlər və sivilizasiyalar arasında əlaqələrin necə qorunub saxlanması öz əksini tapıb.

Ümummilli lider Heydər Əliyev gələcək problemlərlə mübarizə aparmaq və dünyaya mesajını çatdırmaq məqsədilə Azərbaycan üçün müasir mədəni diplomatiyanın əsasını qoyub. Azərbaycanın indiki Prezidenti tərəfindən Heydər Əliyevin doktrinasının uğurla həyata keçirilməsi nəticəsində qeyd edilən mədəni diplomatiyanın hədəflərinə nail olunub.

Heydər Əliyev tarixi kökləri yüzillərə söykənən müasir müstəqil Azərbaycan dövlətinə beynəlxalq aləmin münasibətini müəyyənləşdirmək üçün geniş dünyagörüşünə malik idi. O, gələcək problemlərdən xəbərdar idi və öncədən gördüyü tədbirlərlə Azərbaycan xalqının rifahı üçün töhfə verən irs qoymağa nail olub.

Azərbaycanın ulu öndərinin abidəsi Fəxri xiyabanda qürurla ucalır.

Hər il dekabrın 12-də cəmiyyətin bütün təbəqələrindən olan insanlar bu böyük liderin abidəsi önünə çələnglər qoyaraq xatirəsini ehtiramla anırlar.

# Azərbaycan mülki aviasiya sahəsi üzrə Avropa və MDB regionunda ən yüksək nəticə əldə edib

Azərbaycan mülki aviasiya sahəsində beynəlxalq standartlara uyğunluğun təmin edilməsi üzrə Avropa və MDB regionunda ən yüksək nəticə əldə edib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorundan AZƏRTAC-a bildirilib ki, 2018-ci il iyulun 2-11-də Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) tərəfindən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyində keçirilmiş auditin yekun nəticələri bəlli olub.

Bu nəticələrə görə, Azərbaycan mülki aviasiya sahəsində beynəlxalq standartlara uyğunluğun təmin edilməsi üzrə son iki il ərzində 23,3 faiz irəliləyiş əldə edib.

Dekabrın 4-5-də Parisdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) Avropa və Şimali Atlantika üzrə Regional Bürosunda təşkil edilmiş görüşdə büronun regional direktoru Luis Fonseka de Almeyda Dövlət Mülki Aviasiya Agentliyinin nümayəndə heyətini təbrik edərək Azərbaycanın əldə etdiyi bu tərəqqinin 2018-ci ildə region üzrə ən yüksək nəticə olduğunu qeyd edib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Arif Məmmədov L.F.Almeydaya təbrikə görə təşəkkürünü bildirərək ölkəmizdə aviasiya sahəsində təhlükəsizliyin təmin edilməsində daha yüksək nailiyyətlərin əldə edilməsi istiqamətində bundan sonra da ICAO ilə sıx əməkdaşlığın davam etdiriləcəyini bildirib.

# "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 583; 2004, № 1, maddə 10; 2005, № 4, maddə 278, № 6, maddə 469; 2006, № 11, maddə 932, № 12, maddə 1005; 2007, № 6, maddə 560, № 8, maddə 749, № 11, maddə 1053; 2009, № 6, maddə 394; 2010, № 7, maddə 600; 2011, № 2, maddə 70; 2015, № 4, maddə 354; 2016, № 12, maddə 1987; 2018, № 2, maddə 153, № 6, maddə 1167) aşağıdakı məzmunda 40.2.2-1-ci və 40.3-cü maddələr əlavə edilsin:

"40.2.2-1. tütün məmulatlarını və tütün istifadəsi prosesini nümayiş etdirməmək, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərləri, tamaşaları, proqramları efirdə, kabel yayımı vasitəsilə açıq yayımlamamaq;

40.3. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq teleradio yayımçıları tütündən istifadənin və sağlamlığa zərər vuran digər vərdişlərin mənfi təsiri barədə müvafiq icra hakimiyyəti orqanlarının, elm müəssisələrinin və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda verilişlər hazırlayır və bu mövzulara ayda 90 dəqiqədən az olmayan efir vaxtı ayırırlar. Bu verilişlərin 45 dəqiqəsi saat 17.30 - 23.00 arasında olmaqla, saat 08.00 - 23.00 arasında yayımlanır və verilişlərin surəti hər ay Milli Televiziya və Radio Şurasına təhvil verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

# "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 888; 2006, № 3, maddə 224, № 12, maddə 1005; 2007, № 5, maddələr 435, 442, № 12, maddə 1218; 2009, № 10, maddə 772; 2011, № 2, maddə 70; 2012, № 9, maddə 839; 2015, № 5, maddə 493, № 11, maddə 1281; 2016, № 12, maddə 1988; 2018, № 6, maddə 1170) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.0.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 7.0.10-cu və 7.1-ci maddələr əlavə edilsin:

"7.0.10. tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsilə açıq yayımlanmaması.

7.1. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ictimai yayımçı tütündən istifadənin və sağlamlığa zərər vuran digər vərdişlərin mənfi təsiri barədə müvafiq icra hakimiyyəti orqanlarının, elm müəssisələrinin və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda verilişlər hazırlayır və bu mövzulara ayda 90 dəqiqədən az olmayan efir vaxtı ayırır. Bu verilişlərin 45 dəqiqəsi saat 17.30 - 23.00 arasında olmaqla saat 08.00 - 23.00 arasında yayımlanır və verilişlərin surəti hər ay Milli Televiziya və Radio Şurasına təhvil verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

# "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1328-VQD nömrəli Qanununun tətbiqi və "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1328-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 590; 2005, № 2, maddə 69; 2006, № 11, maddə 947; 2008, № 9, maddə 798; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 9, maddə 995; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521) 6-cı hissəsinin səkkizinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"həmin qanunun 40.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi həyata keçirirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1329-VQD nömrəli Qanununun tətbiqi və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 141 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1329-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 141 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 905; 2007, № 6, maddə 601; 2016, № 4, maddə 677) 3.4-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

"3.5. həmin qanunun 7.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi həyata keçirirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12, maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7, maddə 1389) aşağıdakı dəyişikliklər edilsin:

1. 19.1-ci maddədə "yaradılır" sözündən sonra "və fəaliyyət göstərir" sözləri əlavə edilsin.

2. 23-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Cəmiyyətin icra orqanının səlahiyyətləri müqaviləyə əsasən başqa hüquqi şəxsə və ya fərdi sahibkara (idarəçiyə) verilə bilməz.".

3. 24.1.8-ci maddədən "və Audit Komitəsinin", "həmin idarəetmə orqanlarının" sözləri çıxarılsın və həmin maddədə "bankın inzibatçılarının" sözlərindən əvvəl "bu qanunun tələbləri nəzərə alınmaqla" sözləri əlavə edilsin.

4. 24.3-cü maddənin ikinci cümləsinə "ümumi yığıncaqları" sözlərindən sonra "(o cümlədən yenidən və təkrarən çağırılan ümumi yığıncaqlar)" sözləri əlavə edilsin.

5. 24.5-ci maddənin birinci hissəsinin ikinci cümləsinə "hər bir" sözlərindən sonra "növbəti" sözü, ikinci hissəsinin ikinci cümləsinə "qaydası" sözündən sonra "və müddəti" sözləri əlavə edilsin.

6. Aşağıdakı məzmunda 25.1.5-1-ci maddə əlavə edilsin:

"25.1.5-1. bankın Audit Komitəsinin üzvlərini təyin və azad etmək, Audit Komitəsinin əsasnaməsini təsdiq etmək;".

7. 25.1.9-cu maddədə "bankın nizamnamə kapitalının" sözlərindən əvvəl "bu qanunun 24.3-cü və 25.1.10-cu maddələrinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

8. 25.2-ci maddənin ikinci cümləsində "4" rəqəmi "3" rəqəmi ilə əvəz edilsin.

9. 26.2-ci maddənin ikinci cümləsində "4" rəqəmi "3" rəqəmi ilə əvəz edilsin.

10. 27.3-cü maddədə "4" rəqəmi "3" rəqəmi ilə, "Səhmdarların Ümumi Yığıncağı" sözləri "Müşahidə Şurası" sözləri ilə əvəz edilsin.

11. 27.4-cü maddədə "fiziki şəxslər" sözləri ", habelə bankın digər idarəetmə orqanlarının üzvü olan şəxslər" sözləri ilə, "Səhmdarların Ümumi Yığıncağının" sözləri "Müşahidə Şurasının" sözləri ilə əvəz edilsin.

12. 28.1-ci maddənin birinci cümləsindən "İdarə Heyəti və" sözləri çıxarılsın.

13. 58.2-ci maddənin birinci cümləsinə "ləğvi" sözündən sonra "bu qanunun tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

14. 59.8-ci maddənin birinci cümləsinə "ləğvi" sözündən sonra "bu qanunun tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1296-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1296-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 12; 2001, № 12, maddələr 731, 736; 2004, № 2, maddə 57; 2005, № 4, maddə 274, № 7, maddə 590; 2006, № 11, maddə 926; 2007, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 3, maddə 155, № 8, maddələr 694, 696; 2009, № 6, maddələr 399, 406; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddə 273, № 7, maddə 599; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1041; 2013, № 2, maddə 93; 2016, № 2, I kitab, maddə 192; 2017, № 7, maddə 1255) ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin 2-ci maddəsinin ikinci hissəsinə "müddəaları" sözündən sonra ", həmçinin həmin qanunun 15-1-ci maddəsi" sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 443; 2006, № 6, maddə 486, № 11, maddə 927, № 12, maddə 1013; 2007, № 1, maddə 1, № 5, maddə 441, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 3, maddə 155, № 4, maddə 253; 2009, № 6, maddə 399; 2010, № 3, maddə 171, № 6, maddə 484; 2016, № 2, I kitab, maddə 194; 2017, № 7, maddə 1259) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5-1-ci maddə əlavə edilsin:

"5-1. Vergi orqanlarının vəzifəli şəxslərinin şəxsi işinin aparılması qaydası "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**Maddə 3.** Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 453, № 12, maddə 731; 2004, № 10, maddə 760; 2005, № 4, maddə 280, № 10, maddələr 871, 872; 2006, № 10, maddə 846, № 11, maddə 927; 2007, № 8, maddə 756, № 11, maddələr 1073, 1081; 2008, № 3, maddə 155, № 10, maddə 882; 2009, № 2, maddə 48, № 6, maddə 399; 2010, № 3, maddə 171, № 4, maddə 273, № 12, maddə 1057; 2011, № 1, maddə 13, № 2, maddə 71; 2013, № 5, maddə 462; 2015, № 5, maddə 489, № 10, maddə 1090; 2016, № 2, I kitab, maddə 187; 2017, № 3, maddə 342, № 7, maddə 1249) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin 2-ci maddəsinin ikinci hissəsinə "müddəaları" sözündən sonra ", həmçinin həmin qanunun 15-1-ci maddəsi" sözləri əlavə edilsin.

**Maddə 4.** Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 972; 2010, № 4, maddə 273, № 5, maddə 385; 2011, № 4, maddə 271; 2012, № 5, maddə 412, № 11, maddələr 1042, 1050; 2013, № 3, maddə 228, № 12, maddə 1468; 2016, № 6, maddə 985; 2017, № 7, maddə 1256, № 8, maddə 1508, № 12, I kitab, maddə 2206; 2018, № 3, maddə 391) ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin 4-cü maddəsinə "qulluğa qəbul" sözlərindən sonra "və qulluq keçmə" sözləri və "müddəaları" sözündən sonra ", həmçinin həmin qanunun 15-1-ci maddəsi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1318-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 539 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1318-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 539 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 476; 2005, № 2, maddə 71; 2007, № 4, maddə 323; 2008, № 5, maddə 372; 2014, № 7, maddə 806, № 10, maddə 1174; 2017, № 2, maddə 164, № 7, maddə 1331) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci-beşinci abzaslar, müvafiq olaraq, 3.1-3.4-cü bəndlər hesab edilsin;

3.2. 3.3-cü bəndə "Əsasnamənin" sözündən sonra "5-1-ci maddəsində," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

Elm xadimləri

# Gəncə tarixinin fədakar tədqiqatçısı

Həyat yolumuz bizim dünyaya gəldiyimiz gündən ömrümüzün sonuna qədər yazılır. Ona görə də mənalı həyat yolu insanın şərəfli həyat tarixçəsidir. Tarix elmləri doktoru, professor Fəxrəddin Məmmədov ciddi tədqiqatları, araşdırmaları ilə tanınan, öz dəst-xətti olan görkəmli alimlərdəndir. O, həyatını Azərbaycan tarixinin müxtəlif problemlərinin, xüsusilə bir zamanlar yasaq elan edilmiş Gəncə tarixinin tədqiqinə həsr etmişdir. Qadağalara, sədlərə baxmayaraq, cəfakeş alim bu işi sonadək, özü də cəsarətlə davam etdirmişdir.



Fəxrəddin Məmmədov 1948-ci il dekabrın 13-də Hacıqabul rayonunun Qızılburun kəndində ziyalı ailəsində anadan olub. Şirvan şəhəri 2 saylı orta məktəbi tamamladıqdan sonra ali təhsil almağı qarşısına məqsəd qoyub. İxtisas seçməyin çox qəribə xüsusiyyəti var. İnsanın taleyini əslində seçdiyi ixtisas müəyyən edir. Çox rast gəlirik ki, gənclər dərindən düşünmədən ata, ana və ya başqa birisinin arzusu və ya məsləhəti ilə ixtisas seçir. Onlar da mütəxəssis olurlar. Amma həmişə himayə altında olduqları üçün uğurlu kadr ola bilmirlər. Gənc Fəxrəddin isə əvvəldən heç kimlə məsləhətləşmədən bəyan etmişdi ki, tarixçi olacaq. O, gələcək taleyini hələ orta məktəbdə müəyyən etmişdi. Professor Fəxrəddin Məmmədov elm-təhsil üçün doğulmuş insanlardan idi. Elmdə, təhsildə tərəzisi düz, sözü söz olan insanların isə misli-bərabəri yoxdur.

1965-ci ildə orta məktəbi qurtardıqdan sonra Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olur. Tələbəlik illərində universitet qəzetində müxtəlif məqalələrlə tez-tez çıxış edir. Fakültənin Tələbə Elmi Cəmiyyətində xüsusi fəallığı ilə seçilir. Bugünkü kimi yadımdadır, fakültənin dekanı professor Zakir Abdullayev Fəxrəddin Məmmədovu həmişə tələbələrə nümunə göstərirdi. Hələ tələbə ikən F.Məmmədov Tələbə Elmi Cəmiyyəti respublika konfranslarında uğurlu çıxışları ilə hamının diqqətini cəlb edirdi. Bu da, təbii ki, universitet rəhbərliyi tərəfindən yüksək qiymətləndirilirdi.

1969-cu ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən gənc təyinatla Salyan rayonuna göndərilir. Burada onun uzun illərdən bəri xəyalında yaşatdığı arzusu gerçəkləşir. Tarix müəllimi işləyir. Fəxrəddin Məmmədovun gəlişi ilə məktəbdə yeni abhava yaranır. Gənc müəllim məktəbdə “Tariximizi öyrənək” adlı məclis qurur və rayonun tarix müəllimlərini ora cəlb edir. O zaman bu məclis haqqında respublika mətbuatında da təqdiredici yazılar nəşr edilməyə başlanır.

Daha ciddi elmi-tədqiqat işi aparmaq üçün Fəxrəddin Məmmədovun aspiranturaya daxil olması lazım idi. O vaxtlar aspiranturalarda çox böyük müsabiqə olurdu. F.Məmmədov belə bir müsabiqə ilə Azərbaycan Milli Elmlər Akademiyasının aspiranturasına daxil olur. 1973-1977-ci illərdə AMEA-nın Tarix İnstitutunun aspiranturasında təhsil alır. Bu müddət ərzində tədqiqatçı Leninqradda (indi Sankt-Peterburq) Mərkəzi Tarix Arxivində, Tiflis və Bakı arxivlərində gərgin işləyir. Gəncə adını çəkmək qadağan olunduğu bir zamanda gənc aspirant Leninqradın, Tiflisin və Bakının arxivlərində Gəncə tarixi ilə əlaqədar xeyli sənəd toplayır. Millətə tarixi həqiqətləri çatdırmaq arzusu tədqiqatçı Fəxrəddin Məmmədovu tərk etmir. Elmi araşdırmaları da çox uğurlu gedir.

Çar Rusiyası Cavad xanı öldürüb ölkəni işğal etdikdən sonra da qəzəbi soyumamışdı. Gəncə adı səslənəndə xalqın şərəfli tarixi yada düşdüyü üçün onun adını dəyişib Yelizavetpol qoymuşdular. Bununla da irəlidə olacaq hər cür yasaqlara start vermişdilər. Sovet hakimiyyəti illərində - ötən əsrin 70-ci illərində dissertasiya mövzusu olaraq Gəncə tarixinə müraciət etmək, mübaliğəsiz, cəsarətli bir iş idi. Fəxrəddin müəllim arxivlərdə daha dərindən, daha məhsuldar tədqiqatlar aparırdı, oxuyub bildiklərini arxiv dəftərinə yazırdı. O zaman arxivlərə girəndə qalın dəftər səhifələnir, surquclanır və bir sıra qadağalarla tədqiqatçıya verilirdi. Hansı sənədlərin arxivdən çıxarılmasının qadağan olunduğu hər bir tədqiqatçıya bildirilirdi. Arxiv sənədlərini dəftərə yazdıqdan sonra həmin dəftər nəzarətçiyə təqdim olunurdu. O vaxt arxivdə işləyənlərə belə xeyi-dua verirdilər; “Allah səni qeydiyyatçının qayçısından uzaq etsin”. Amma uzaq olmaq da mümkün deyildi. Dəftəri qeydiyyatçıdan aldıqda səhifələrin çoxu qayçılanmış olurdu...

Nəhayət, o, arxivlərdən topladığı, çoxu da ilk dəfə elmi mübadiləyə daxil olan sənədlər əsasında namizədlik dissertasiyasını tamamlayıb müdafiəyə təqdim etdi. İndiki kimi yadımdadır. 1977-ci ildə Fəxrəddin Məmmədovun müdafiəsində iştirak edirdim. Elmi Şuranın o zaman çox nüfuzlu üzvlərinin əksəriyyəti onun haqqında yüksək fikir söylədilər və əminliklə bildirdilər ki, F.Məmmədovun hələ irəlidə böyük araşdırmalarının şahidi olacaqlar. Bu, gənc alimə olan inamla bağlı idi. Onun qarşısında qoyulan vəzifə idi.

1983-cü ildə gənc tarixçi “İnqilab barrikadalarında” kitabında Gəncə tarixi haqqında maraqlı faktları elmi mübadiləyə daxil etdi. Orada qeyd olunurdu ki, Azərbaycanda milli ruhlu ziyalılarımızın yetişdiyi ən mühüm mərkəzlərdən biri Gəncə olmuşdu. Həqiqət də bundan ibarət idi. Tədqiqatçı əsərlərini rus dilində də çap etdirmişdi. 1987-ci ildə Fəxrəddin müəllim əsas fikirlərini rus dilində çıxan “Gəncə” kitabında verir. 2000-ci ildə tarixçi şah əsərini - “Ulu Gəncə” kitabını nəşr etdirir. 2003-cü ildə Fəxrəddin Məmmədovun “İstiqlal mücadiləmizin beşiyi - Gəncə” əsəri işıq üzü görür. Artıq müstəqillik qazandığımız ölkədə Azərbaycan Xalq Cümhuriyyəti haqqında geniş yazmaq olardı. Kitabda ilk dəfə sovet hakimiyyətinə qarşı Gəncə üsyanı haqqında yeni faktlar elmi mübadiləyə daxil edilmişdi.

1990-cı ildə Fəxrəddin Məmmədov doktorluq dissertasiyasını müdafiə edir. Bu dissertasiya işində Gəncə quberniyasının XIX əsrin sonu, XX əsrin əvvəllərindəki tarixi fundamental şəkildə tədqiq olunur.

Professor F.Məmmədov bir müddət AMEA-nın Tarix İnstitutunun baş elmi işçisi vəzifəsində çalışır. 1994-cü ildə Azərbaycan Tibb Universitetində müsabiqə yolu ilə Tarix kafedrasının müdiri seçilir. O, Azərbaycan Tibb Universiteti Elmi Şurasının qərarı ilə həmin universitetin professoru olur. Hazırda respublikada Tarix üzrə İxtisaslaşdırılmış Müdafə Şurasının üzvüdür. Onlarla kitabı, 100 məqaləsi çap olunub. 10-dan artıq beynəlxalq konfranslarda iştirak edib, nüfuzlu tədbirlərin rəhbəri olub. Ondan artıq elmlər namizədi hazırlayıb. Çox maraqlıdır ki, professor Fəxrəddin Məmmədovun rəhbərlik etdiyi dissertantların çoxu Gəncə tarixinin müxtəlif mövzuları üzrə araşdırmalar aparıb. Ona görə də professor Fəxrəddin Məmmədova Gəncənin fəxri vətəndaşı deyirlər. O, 20-dən çox elmlər doktorunun və elmlər namizədinin opponenti olub. Ömrünün 50 ilini Azərbaycan tarixinin çox mühüm problemlərinin öyrənilməsinə həsr edib. Professor Fəxrəddin Məmmədovun ABŞ və Yəmən mətbuatında “Qarabağ probleminin sülh yolu ilə həll olunmasında Heydər Əliyevin rolu” və “Yolumuz demokratiya yoludur” mövzularında məqalələri çap edilib.

Fəxrəddin Məmmədov ömrünün şərəf zirvəsini yaşayır. İrəlidə isə hələ fəth etməli nə qədər zirvələr var.

***Həsənbala SADIQOV, professor, əməkdar müəllim***

# Nüfuzlu beynəlxalq qurumlar Azərbaycanla əməkdaşlıqda maraqlıdır



*Əvvəli 1-ci səh.*

Məlumdur ki, Azərbaycan dünyanın bütün beynəlxalq təşkilatları ilə səmərəli əməkdaşlıq edir, bunun sayəsində etibarlı tərəfdaş statusunu qazanıb. Belə təşkilatlardan biri də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatıdır. Ölkəmiz 20 oktyabr 1995-ci ildən bu qurumun üzvüdür. Ötən dövr ərzində FAO tərəfindən Azərbaycanda kənd təsərrüfatında məhsuldarlığın artırılması, aqrar islahatların həyata keçirilməsi və intensivləşdirilməsi, ərzaq təhlükəsizliyi ilə bağlı bir sıra problemlərin həllinə yönəlmiş layihələr həyata keçirilib. FAO ölkəmizə etimad göstərərək 2007-ci ildə Azərbaycanda nümayəndəliyini açıb. Yeri gəlmişkən qeyd edək ki, bu təşkilat dünyanın 191 ölkəsində fəaliyyət göstərsə də, 130 ölkəsində nümayəndəliyə malikdir.

Dünyada elm, texnika və texnologiyaların inkişaf etdiyi bir dövrdə hələ də aclıq çəkənlər var. Özü də onların sayı milyonlarladır. İnkişaf etmiş ölkələr əhalinin ərzaqla təminatı üçün kənd təsərrüfatına müxtəlif güzəştlər tətbiq edirlər ki, ərzaq çatışmazlığı problemi ilə qarşılaşmasınlar. Çünki ərzaq çatışmazlığı sosial partlayış yarada biləcək çox həssas problemdir. Digər tərəfdən, inkişaf etmiş ölkələrdə ərzaq bolluğu ərzaq itkisinə səbəb olur. Bu da, bir növ, dünyanın o biri başında ərzaq qıtlığından əziyyət çəkənlərin sayını artırır.

Odur ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ərzaq itkilərinin və ərzaq tullantılarının azaldılması təşəbbüsü ilə çıxış edir. BMT-nin Xəbərlər Mərkəzi bildirir ki, bu təşəbbüsün həyata keçirilməsi aclıq çəkən insanlara kömək etməyə yönəlib.

Məlumat üçün bildirək ki, hazırda hər il dünyada istehsal edilən ərzağın təqribən 30 faizi itirilir və ya tullanır. FAO-nun bəyanatında deyilir: “Bir milyarda yaxın insanın aclıq çəkdiyi bir vaxtda bu, yolverilməz israfçılıqdır. Üstəlik, bu vəziyyət ərzaq istehsalında istifadə edilən əmək, enerji, torpaq, su ehtiyatlarının və digər resursların itkisinə gətirib çıxarır”. FAO-nun həmin sənədində daha sonra qeyd edilir ki, ərzaq itkisinin qarşısının alınması layihələrinə vəsait qoyulması həm də yoxsulluğa qarşı mübarizəyə sərmayə yatırılması deməkdir. Belə layihələr sabit ərzaq sistemləri yaradılmasına kömək edir.

Bu gün dünyada aclıq çəkən insanların sayı təqribən 815 milyon nəfərdir. Çox qəribədir ki, onların əksəriyyəti kənd yerlərində yaşayır. Ümumiyyətlə, ərzaq itkisi məhsul yetişdirilərkən, tədarük və emal edilərkən, ən başlıcası isə son istifadə zamanı baş verir. Buna görə də həmin problemin həllinə kompleks yanaşılmalıdır. Ərzaq israfçılığının qarşısının alınması ilkin prosesdən son anadək düzgün aparılmalıdır.

Ən böyük məsuliyyət isə istehlakçıların üzərinə düşür. Təcrübə göstərir ki, ərzaq itkisi iaşə xidmətləri obyektlərində və ailələrdə baş verir. Bu da təbiidir. Çünki ərzaqdan son istifadə bu yerlərdə olur. Ölkəmizdə xüsusilə toy və yas mərasimlərində ərzaq itkisinə yol verilməsi barədə dəfələrlə həyəcan təbili çalınıb. Hələ ki, konkret irəliləyiş müşahidə edilmir. Ərzaq israfçılığı ölkəmizin maliyyə və maddi resurslarına da zərbə vurur. Unutmayaq ki, bir çox ərzaq məhsullarını valyuta ilə xaricdən idxal edirik. Əgər ərzaqdan istifadə edərkən itkiləri minimum endirsək, bir o qədər həm ölkə, həm də büdcəmizə qənaət etmiş olarıq.

Məsələnin ciddiliyini nəzərə alaraq, FAO-nun yeni təşəbbüsü BMT Baş Məclisinin 72-ci sessiyası çərçivəsində keçirilən yüksək səviyyəli tədbirdə geniş müzakirə olunub. Tədbir iştirakçıları ərzaq itkisinin və ərzaq tullantılarının azaldılması məsələlərinə bütün ölkələrdə xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıblar. Qeyd olunub ki, problemin həlli üçün 17 bənddən ibarət Davamlı İnkişaf Hədəflərindən ikinci hədəfə nail olmaq lazımdır. Ərzaq itkisi təkcə aclıqla nəticələnmir. FAO-nun baş direktoru Joze Qrasianu de Silva deyib ki, itkilərin qarşısının alınması böyük iqtisadi əhəmiyyət kəsb edir. Aparılan hesablamalara görə, ərzaq itkisinin və ərzaq tullantılarının azaldılması tədbirlərinə qoyulan 1 dollar son nəticə etibarilə 14 dollar qazanc gətirir. Yəni bu sahədə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər icra olunarsa, dünyada maddi resursların və insan əməyinin boş yerə xərclənməsinin qarşısı alına bilər.

Azərbaycan FAO ilə səmərəli əməkdaşlıq edir. Hazırda FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı çərçivəsində ailələrin ərzaq təhlükəsizliyinə, kənd yaşayışının yaxşılaşdırılmasına və yoxsulluğun azaldılmasına hesablanan yeni layihə icra olunur. FAO ölkəmizdə aqrar sektorda həyata keçirilən islahatları da yüksək qiymətləndirir. Təşkilatın baş direktoru Joze Qrasianu de Silva Minilliyin İnkişaf Məqsədləri üçün dünyanın 128 ölkəsinin yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürdüyünü və Azərbaycanın yoxsulluğu 5 faizədək aşağı salmağa nail olan azsaylı ölkələrdən biri olduğunu qeyd edib.

***Rüstəm KAMAL, “Azərbaycan”***

# “Şahdəniz”in qoşa dayağı

## Layihənin hər iki mərhələsindən qaz və kondensat ixracı davam edir

*Əvvəli 1-ci səh.*



Buradan çıxarılan mavi yanacaq Cənubi Qafqaz Boru Kəməri ilə 2006-cı ilin axırlarından Azərbaycana və Gürcüstana çatdırılır. 2007-ci ilin əvvəlindən isə Azərbaycan qazı Bakı-Tbilisi-Ərzurum xətti ilə Türkiyəyə də nəql olunur. “Şahdəniz”in kondensatı Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə qoşulur.

“Şahdəniz-1” artıq özünün ən yüksək hasilat dövrünə çatıb və buradakı platforma ahəngdar işləməkdə davam edir. Qurğunun faydalı iş əmsalı yenə də yüksəkdir. Layihənin əməliyyatçısı BP şirkətindən aldığımız məlumata görə, 2018-ci ilin üç rübü ərzində “Şahdəniz” yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC-ə), Türkiyə (BOTAŞ-a) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə qaz çatdırılması davam edib. 9 ay ərzində yataqdan 8 milyard standart kubmetr qaz və 1,8 milyon ton (təqribən 14,3 milyon barel) kondensat əldə olunub. Mövcud “Şahdəniz” qurğularının hasilat gücü hazırda gündə 43 milyon (ildə təqribən 16 milyard) standart kubmetrdir. Qeyd edək ki, “Şahdəniz” layihəsində iştirak payları belə bölünüb: BP (28,8 faiz), TPAO (19 faiz), AzŞD (10 faiz), “Cənub qaz dəhlizi Apstrim” (6,7 faiz), PETRONAS (15,5 faiz), “LUKoyl” (10 faiz), NİKO (10 faiz).

Karbohidrogenlərin çıxarıldığı “Şahdəniz Alfa” platforması qazma və hasilat bloklarından, habelə 120 nəfər üçün nəzərdə tutulmuş yaşayış hissəsindən ibarət, ümumi çəkisi 32 min ton olan nəhəng bir qurğudur. Onun üst modullarının çəkisi 22 min tona, dayaqlarının və özüllərinin çəkisi 10 min tona çatır. Platformanın qazma qurğuları uzunluğu 7 kilometrdən və əhatə dairəsi 3 kilometrdən çox olan quyular qazmağa imkan verir.

“Şahdəniz Alfa” ölkə daxilində - Bakının Zığ ərazisindəki tikinti-quraşdırma sahəsində inşa edilib. Daha bir önəmli fakt odur ki, qurğu bu gün əsasən yerli mütəxəssislər tərəfindən idarə olunur.

“Şahdəniz-2”də quraşdırılmış platformaların dayaq blokları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilib. Birinci platformanın - Yaşayış Blokları və Texnoloji Təchizat Platformasının üst modulları 2017-ci ilin iyun ayından Xəzərdədir. Bu qurğunun dənizə vaxtında yola salınması və müvəffəqiyyətlə quraşdırılması Azərbaycan qazının Avropaya çatdırılması istiqamətində aparılan genişmiqyaslı işlər sırasında xüsusi önəm daşıyır. Çünki “Şahdəniz-2” layihəsi “Cənub qaz dəhlizi”nin birinci seqmentidir.

“Şahdəniz Bravo” qurğularının üst modulları Bibiheybətdəki tikinti-quraşdırma sahəsində “AMEK-Tekfen-Azfen” (ATA) konsorsiumu tərəfindən araya-ərsəyə gəlib. Platformalardan birincisinin konstruksiyasının çəkisi 12 min 400 tona yaxındır, uzunluğu 100, eni 60 metrə çatır. Qurğunun yaşayış bloku 100 nəfər üçün nəzərdə tutulub.

2017-ci il sentyabrın 15-də “Şahdəniz-2” üçün tikilən platformalardan ikincisinin - Hasilat və Dikborular Platformasının da üst modulları yola salınıb və dənizdə quraşdırılıb.

Bu qurğuların tikintisinin uğurla başa çatdırılması 2018-ci il mayın 29-da Səngəçal terminalında “Cənub qaz dəhlizi”nin rəsmi açılış mərasiminin keçirilməsinə imkan verdi. Bundan bir qədər sonra - iyunun 30-da “Şahdəniz-2” layihəsindən Türkiyəyə ilk kommersiya məqsədli qaz daşımalarına başlandı. İyulun 30-da yatağın şimal cinahındakı SDC03Z quyusunun ventili açılaraq “Şahdəniz Bravo” platformasından ilk qaz əldə olundu. Bu da ümumilikdə Xəzər dənizində sualtı quyudan çıxarılan ilk hasilat idi.

Hazırda “Şahdəniz Bravo” qurğularından Səngəçal terminalına qaz və kondensat ixrac olunmaqdadır. Beləliklə, layihənin təhlükəsiz şəkildə və büdcəyə uyğun həyata keçirilməsi davam edir.

“Şahdəniz”də yeni quyular da qazılır. “İstiqlal” və “Maersk Explorer” qurğuları indiyədək təkcə “Şahdəniz Bravo” platformasından hasilat üçün 14 quyuda qazma işləri aparıb. Bunlardan yatağın şimal və qərb cinahlarının hər birində 4, şərq cinahında 2 quyu tamamlanıb. Qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinə çatanadək tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək. Yeni quyular ölkəmizin ərazisindən, Gürcüstandan və Türkiyədən keçib artıq Avropaya doğru üz tutan Azərbaycan qazının bol mənbəyidir.

***Flora SADIQLI, “Azərbaycan”***

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Avropa Parlamentində təntənə ilə qeyd edilib





Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Strasburqda Avropa Parlamentində təntənə ilə qeyd olunub.

AZƏRTAC xəbər verir ki, tədbiri Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolai açıb. O deyib: “Bu axşam siyasətə görə deyil, dostluğa görə toplaşmışıq. Bu tədbir Azərbaycan və Avropa İttifaqı arasında dostluğun təcəssümüdür. Bu axşam dostluqdan danışacağam. Dostluğun çox sözə ehtiyacı yoxdur. Bu təntənəli tədbirdə aydın görürəm ki, dostluğumuz möhkəmdir”.

Norika Nikolai ölkəmizin qədim tarixi, mədəniyyəti barədə danışaraq bu gün Londonun Viktoriya və Albert, Parisin Luvr, Vyananın zəngin muzeylərində Azərbaycanın milli sənət nümunələrinin nümayiş olunduğunu bildirib.

Milli Məclisin deputatı, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev bildirib ki, 100 il əvvəl müsəlman Şərqində ilk demokratik parlamentli Azərbaycan Respublikası yaranıb. Birinci Dünya müharibəsindən sonra Avropada mürəkkəb siyasi vəziyyət olduğu vaxtda, ölkəmiz müstəqilliyini elan edib, demokratik, hüquqi dünyəvi dövlət qurulub. İrqindən, cinsindən asılı olmayaraq cəmiyyətin bütün üzvlərinin azadlığı və bərabərliyi təmin edilib. Bir çox Avropa ölkəsindən əvvəl qadınlara səsvermə hüququ verib.

C.Feyziyev ilk parlamentimiz haqqında ətraflı məlumat verərək 100 il bundan əvvəl parlamentin ilk plenar sessiyasının keçirildiyini, ən mühüm dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul edildiyini diqqətə çatdırıb. O, 1919-cu ildə Bakı Dövlət Universitetinin təsis edildiyini, iqtisadi çətinliklərə baxmayaraq, yüzlərlə tələbəyə təqaüd verilərək Avropa universitetlərində təhsil almağa göndərildiyini qeyd edib. “Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa edib, bu gün Cənubi Qafqazda Avropa İttifaqının etibarlı tərəfdaşıdır. Avropa İttifaqı isə ölkəmizin ən böyük ticarət tərəfdaşıdır. Azərbaycan “Odlar yurdu” deməkdir. Sivilizasiyaların kəsişməsində yerləşən ölkəmiz tolerantlıq və multikulturalizm üzrə digər ölkələrə nümunədir. Davamlı inkişaf strategiyası ilə Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edib və regionda ən cəlbedici sərmayə ölkəsinə çevrilib. Son onilliklər ərzində Azərbaycan Avropa ilə Asiyanı daha da yaxınlaşdırıb. Ölkəmiz Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamaqda iddialıdır. Azərbaycan və Avropa İttifaqı arasında yeni əməkdaşlıq sazişi ilə bağlı işlər qarşıdan gələn aylarda yekunlaşdırılacaq. Əminəm ki, bu yeni saziş qarşılıqlı faydalı əməkdaşlığımız üçün yeni üfüqlər açacaq”, - deyə deputat bildirib.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Səyyad Kərim parlamentlərarası əlaqələrə toxunaraq, əlaqələrin möhkəmlənməsindən söz açıb. O, Bakıda Azərbaycan parlamentinin 100 illiyinin təntənəli şəkildə qeyd olunduğunu xatırladıb.

Tədbir çərçivəsində Azərbaycan Xalq Cümhuriyyəti haqqında video nümayiş olunub.

Azərbaycanın xalq artisti Ənvər Sadıqovun rəhbərlik etdiyi “Qaytağı” instrumental ansamblının ifasında milli musiqilərimiz səsləndirilib. İştirakçılar milli musiqilərimizi alqışlarla qarşılayıblar.

Tədbirdə Azərbaycanın Belçika və Lüksemburqdakı səfiri və Avropa İttifaqı yanında nümayəndəliyinin rəhbəri Fuad İsgəndərov, Avropa Şurası yanında daimi nümayəndəliyin rəhbəri, səfir Fəxrəddin İsmayılov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, ölkəmizin AŞ PA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, azərbaycanlı və avropalı deputatlar iştirak ediblər.

## Azərbaycan Respublikasının Mərkəzi Bankı

### kotirovka sorğusu elan edir

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün rəngli printerin satın alınması.

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğuları üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri 20 dekabr 2018-ci il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 21 dekabr 2018-ci il saat 15:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

**Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elvin Şirdanov, telefon - 493 11 22 (daxili 428).**

*Tender komissiyası*



## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 23.11.2018-ci il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC-nin "Xətai" stansiyasının maili tunelində köhnə çətirin sökülməsi və yenisinin quraşdırılması işlərinin "Açıq tender" üsulu ilə satın alınmasına dair müsabiqədə "Kaspian Standart CO" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 03.12.2018-ci il tarixdə ƏDV daxil 595 495,15 manat (beş yüz doxsan beş min dörd yüz doxsan beş manat 15 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*



## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 30.10.2018-ci il tarixdə keçirilmiş 1 LOT üzrə "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyası üçün kameraların alınması, quraşdırılması və işə buraxılması işlərinin "Açıq tender" üsulu ilə satın alınmasına dair müsabiqədə "Smart Elektroniks" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə LOT-1 üzrə 05.12.2018-ci il tarixdə ƏDV daxil 294 819,46 (iki yüz doxsan dörd min səkkiz yüz on doqquz manat 46 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*



## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən texniki avadanlıqların ehtiyat hissələrinin alınması və katriclərin doldurulması üzrə iş və xidmətlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "COPY PRİNT" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*


# Ermənistanda yeni diktatura formalaşır

İşğalçı ölkəni xaosa sürükləyən növbədənkənar parlament seçkiləri ictimai-siyasi vəziyyəti daha da gərginləşdirib

*Əvvəli 1-ci səh.*

### "Seçkilərdə namizədlərə və onların tərəfdarlarına qarşı təzyiqlər olub"

Bəyanatda daha sonra qeyd olunur: "Seçkilər fərqli düşüncəyə dözümsüzlük, namizədlərə və onların tərəfdarlarına, yerli özünüidarəetmə orqanlarına kobud təzyiqlər və inzibati resurslardan görünməmiş miqyasda istifadə etməklə ksenofobiyanın təbliği şəraitində keçirilib".

Partiyanın bəyanatında xatırladılıb ki, ölkədə parlament üsul-idarəsinə keçidin başlıca məqsədi cəmiyyətdə fərqli mövqedən çıxış edənlərlə həmrəylik şəraitinin yaradılması olub: "Lakin təəssüflə qeyd etmək lazımdır ki, seçkiqabağı kampaniya müxtəlif təbəqələr arasında dərin uçurum yaradıb. Bununla belə, seçkilərdən əvvəl bizim qaldırdığımız məsələlər - yeni hökumətin xarici siyasəti, müdafiə və təhlükəsizlik sahələrindəki strategiyası bizdə narahatlıq doğurur və erməni xalqının gələcəyi də bu amillərdən asılıdır".

### Deputat mandatı uğrunda qızğın mübarizə

Məlum inqilab zamanı Paşinyanı dəstəkləyən "Daşnaksütyun" partiyası da hökuməti seçkiyə görə tənqid edib. Daşnaklar bundan sonrakı prioritetlərinin xarici siyasi çağırışlara cavab və Qarabağ problemi olacağını bildiriblər.

Ən maraqlı çıxış isə parlamentə daxil olan "İşıqlı Ermənistan" partiyasından gəlib. Paşinyanın "Yelk" blokundakı keçmiş müttəfiqi Edmon Marukyan rəsmən özünü müxalifət elan edib. Marukyan dərhal parlamentə düşən digər partiya olan "Çiçəklənən Ermənistan"ı tənqid edib. O, partiyanın rəhbəri Hagik Tsarukyanı oliqarx adlandıraraq, ona deputat mandatının lazım olmadığını deyib. Ermənistan mətbuatı artıq Marukyanın parlamentdə Paşinyana yox, Tsarukyana müxalifət olacağını iddia edib.

Mətbuat, həmçinin Tsarukyanın çıxışı zamanı özünü tam müxalifət nümayəndəsi kimi aparmamasına diqqət yetirib. Onun son çıxışının elə öz nüfuzunun aşağı düşməsiylə nəticələnə biləcəyi vurğulanıb. Digər məlumata görə isə Paşinyanın rəhbərlik etdiyi müvəqqəti hökumətdə təmsil olunanların əksəriyyəti gələcək siyasi kataklizmləri nəzərə alaraq, seçkilərdən sonra qızğın mübarizəyə başlayıblar.

"Qraparak" qəzeti etibarlı mənbələrinə istinadən yazır ki, Paşinyanın "Mənim addımım" blokunun proporsional seçki siyahısında adları göstərilən icra hakimiyyətinin bir çox üzvü 9 dekabr seçkilərindən sonra parlamentə düşməyə can atırlar: "Məsələ ondadır ki, hökumətdə olduqları bir neçə ay ərzində onlar başa düşüblər ki, bu, öhdəsindən gələ biləcəkləri iş deyil. Digər tərəfdən isə ehtiyat edirlər ki, Nikol Paşinyanı qəzəbləndirməklə onun etibarını itirə və nəticədə "oyundan kənar" qala bilərlər. Ona görə də, ən "sakit" və rahat olanı elə parlamentin deputatı statusudur: ezamiyyətlər, yüksək maaş və sıfır məsuliyyət".

### Nazirliklərin sayı azaldılır

Həmçinin qeyd olunur ki, Paşinyanın silahdaşlarının onun gözündən uzaq qaçmalarının digər bir səbəbi də gələcəkdə Ermənistan siyasi atmosferindəki burulğanlar nəticəsində müxalifətə keçmələrinin asanlığını təmin etmək niyyətləri ilə bağlıdır.

O da məlumdur ki, Paşinyan hazırda mövcud olan nazirliklərin sayını azaldaraq hökumətdə ixtisarlar edəcək. Paşinyan özü bu haqda bildirib: "Düşünürəm ki, ölkəmizdə çoxlu nazirlik var, onların sayı azaldılmalıdır. Biz bu məsələni müzakirə edirik".

Erməni mediası yazır ki, hələ parlamentin tərkibi təsdiqlənməmiş və rəsmi prosedurla səsvermə nəticəsində baş nazir seçilmədən Paşinyanın indidən hökumətdə kadr islahatlarına başlaması onun hakimiyyət hərisi olduğunu və parlamentdə üstünlüyü ələ aldıqdan sonra istənilən məsələdə qələbə çalacağına əminliyini göstərir.

### "Paşinyanın hədəfi "məxməri" adlandırılan inqilabı uzunmüddətli mirasa çevirməkdir"

Digər tərəfdən artıq o da bəllidir ki, Paşinyanın yaxın qohumları parlamentdə əsas qüvvələr olacaq. Qeyd edək ki, parlament seçkilərinin yekunlarına əsasən, Nikol Paşinyanın yaxın qohumları deputat mandatı əldə ediblər. Paşinyanın qardaşı oğlu Sipan Paşinyan Tavuş bölgəsində 17155 səs toplayaraq parlamentdə təmsil olunmağa haqq qazanıb. Paşinyanın qaynı Qraç Akopyan isə 8920 səslə yeni parlamentin üzvləri arasında yer alacaq. Bu da Paşinyana bağlı qüvvələrin parlamentdə əsas qüvvə olacağını göstərir.

Britaniyanın "Chatham House" təşkilatının analitiki Lourens Broers bu xüsusda bildirir: "Nikol Paşinyanın hazırda üzləşdiyi başlıca problem "məxməri" adlandırılan inqilabı uzunmüddətli mirasa çevirməkdir. Bu isə, Paşinyanın diktator olmasını təmin edəcək. Paşinyan özünün şəxsi populyarlığından həzz alır və qarşısındakıların hamısını silib-süpürərək ölkədə yeganə dominant fiqur olmaq təhlükəsi yaradır".

Broersin fikrincə, Ermənistan uzun illərdir ki, bir sıra sahələrdə genişmiqyaslı islahatlara ehtiyac duyur, lakin bu islahatların tam effektivliyi üçün hesabatlılıq başlıca meyardır. Bu mənada, çətin ki, Paşinyan Ermənistanda təkhakimiyyətliliyə nail olduqdan sonra parlamentdə hökumətin səhv qərarlarını mühakimə edəcək sağlam müxalifət formalaşsın: "Postsovet ölkələrində tez-tez populyar üsyanlar yolu ilə hakimiyyətə gətirilən islahatçı liderlər daha sonra gücü öz əllərində mərkəzləşdirirlər və legitimliklərini itirirlər. Paşinyan da inqilab yolu ilə baş nazir kimi hakimiyyətə gəldi. Amma parlament əvvəlki hakimiyyətin nəzarətində idi. Digər postsovet ölkələrinin təcrübəsindən də görürük ki, inqilabdan sonra bütün hakimiyyəti ələ alan liderlər uzunmüddətli islahatlar və siyasi dəyişikliklərlə bağlı xalqı məyus ediblər. Paşinyan həm də gənc və təcrübəsiz elitləri hökumətə gətirib və şübhəsiz ki, onlar gələcəkdə səhvlər buraxacaqlar. Və məsələ də ondadır ki, hökumətin bu cür səhvlərinə görə Paşinyandan hansı siyasi qüvvələr hesab soraraq onu məsuliyyətə cəlb edə biləcəklər?"

Politoloq Ermənistanın Rusiya ilə münasibətlərinin gələcəyinə də toxunub: "Ermənistan xalqı avtoritar və oliqarx rejimlərdən canını qurtarmaqda niyyətlidir, amma Rusiya ilə sıx müttəfiqlik əlaqələrini saxlamaqla buna necə nail olacaqları Ermənistan-Rusiya münasibətlərini ciddi sınağa çəkəcək. Lakin enerji və nəqliyyat kimi strateji sferalar da daxil olmaqla, iqtisadiyyatın başlıca sahələrində Ermənistan oliqarxlarının ruslarla əlaqələrinin pozulması Paşinyanın həmin oliqarxların yerli erməni müştəriləri, o cümlədən də Rusiya dövləti və kommersiya fiqurları ilə münaqişəyə girməsini qaçılmaz edəcək".

Bütün bunlar hakimiyyətə yiyələnən Paşinyanı heç də asan günlər gözləmədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


**Azercell**

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 14.12.2018-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



**Azercell**

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 14.12.2018-ci il tarixdə saat 22:00-dan başlayaraq 15.12.2018-ci il tarixdə gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Beynəlxalq aləm

HADİSƏLƏR, FAKTLAR




## Strasburqda üç nəfər terror aktında həlak oldu

Srağagün axşam Fransanın Strasburq şəhərində Milad yarmarkasında cinayətkar yoldan keçənləri atəşə tutmuşdur. Son məlumata görə, hadisə zamanı üç nəfər həlak olmuş, 12 nəfər yaralanmışdır.

Cinayətkar hadisə yerindən qaça bilmişdir. Asayiş keşikçilərinin verdiyi məlumata görə, söhbət Şərif Ş. adlı 29 yaşlı şəhər sakinindən gedir. O, adam öldürmək cəhdində şübhəli şəxs kimi həbs edilməli imiş.

Polisin keçirdiyi əməliyyatla əlaqədar şəhərdə nəqliyyatın hərəkəti dayandırılmışdır. Daxili İşlər Nazirliyi Strasburq sakinlərini evlərini tərk etməməyə və hakimiyyət orqanlarının tövsiyələrini izləməyə çağırmışdır.

## Tramp: "30 gündən sonra bir nəfər də olsun İŞİD terrorçusu qalmayacaq"



İraq və Suriyada milli və dini azlıqların müdafiəsi haqqında qanunun imzalanması ilə əlaqədar Ağ evdə təşkil olunmuş mərasimdə ABŞ Prezidenti Donald Tramp İŞİD terrorçu təşkilatına dair maraqlı bəyanatla çıxış etmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

İŞİD-in bu regionda yaşayanlara həddən artıq çox pislik etdiyini bildirən Prezident demişdir: "Biz İŞİD-ə qarşı böyük iş görmüşük. Bu regionda onların sayı çox az qalıb və növbəti 30 gün ərzində bir nəfər də olsun İŞİD-çi qalmayacaq".

Tramp qeyd etmişdir ki, ABŞ İŞİD terrorçu təşkilatının ziyan vurduğu dini və milli azlıqları dəstəkləməkdə davam edəcək. Bundan sonra Prezident kameralar qarşısında müvafiq qanunu imzalamışdır.

## İndoneziyada 4211 nəfər təbii fəlakətlərin qurbanı olub



İndoneziyanın Fövqəladə Halların Fəsadlarının Aradan Qaldırılması Agentliyinin nümayəndəsi Sutopo Purvo Nuqroxonun dediyinə görə, 2018-ci ildə 4211 nəfər ölkədə baş vermiş təbii fəlakətlərin qurbanı olmuşdur.

İlin əvvəlindən bəri İndoneziyada 2374 təbii fəlakət qeydə alınmışdır. Nəticədə 6940 nəfər zərər çəkmiş, 10 milyon nəfərə yaxın adam ev-eşiyini tərk etmək məcburiyyətində qalmışdır.

Xatırladaq ki, sentyabrın 28-də Sulavesi adasında 7,5 bal gücündə zəlzələ baş vermişdir. Bundan sonra Dunqala rayonunu və Palu şəhərini sunami vurmuşdur. Nəticədə 2 min nəfərdən çox adam həlak olmuş, təxminən 1500 nəfər itkin düşmüşdür.

## Beş əcnəbinin saxta sənədlərlə dövlət sərhədindən keçməsinin qarşısı alınıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhəd təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirlər davam etdirilir.

Xidmət əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində son günlər dövlət sərhədindən buraxılış məntəqələrində beş nəfərin saxta sənədlərlə dövlət sərhədindən keçməsinin qarşısı alınıb.

Belə ki, dekabrın 2-də Moskva-Bakı aviareysi ilə ölkəmizə gələn Pakistan vətəndaşı 1989-cu il təvəllüdlü Anvar Cohninin Böyük Britaniyaya məxsus pasportunun qismən saxta olması müəyyənləşib. Dekabrın 4-də Bakı-İstanbul aviareysi ilə gedən Pakistan vətəndaşı 1984-cü il təvəllüdlü İmran Saqibin İsveçə məxsus ID kartının tam saxta olması müəyyən edilib. Bir gün sonra Moskva-Bakı aviareysi ilə gələn Özbəkistan vətəndaşı 1993-cü il təvəllüdlü Zubaydiva Ziyodanın pasportunda tarix-möhürlərin saxta olması aşkarlanıb. Dekabrın 6-da isə Erbil-Bakı aviareysi ilə gələn Böyük Britaniya vətəndaşı 1984-cü il təvəllüdlü Svar Solav Mohammed Aminin pasportunun saxta olması müəyyən edilib. Araşdırma zamanı həmin şəxsin üzərindən İraq vətəndaşı 1982-ci il təvəllüdlü Qahriya Sulaiman Husseinin adına pasport aşkar edilib.

Dekabrın 7-də Dubay-Bakı reysi ilə ölkəmizə gələn Hindistan vətəndaşı 1992-ci il təvəllüdlü Çaudhari Ravindrakumar Coitabhainin elektron vizasının saxta olması aşkarlanıb.

Saxlanılan şəxslər barəsində müvafiq tədbirlər görülüb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Nizami və Niyazi Səfərov qardaşlarına əzizləri

**SÜRƏYYA QASIMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Niyazi və Nizami Səfərov qardaşlarına əzizləri

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Respublika Dəri-Zöhrəvi Dispanserinin rəhbərliyi və kollektivi həkim İlham İgidova atası

**RAMİZİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri Xətai Rayon Məhkəməsinin kollektivi məhkəmənin əməkdaşı Orxan Paşayevə atası

**ZAKİR PAŞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının idarə heyəti və kollektivi Vergilər Nazirliyi Xüsusi Rejimli Vergi Xidməti Departamentinin rəisi Zaur Fətizadəyə anası

**ZİNAİDA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının idarə heyəti və kollektivi Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru Aydın Əliyevə anası

**BALAXANIM ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin sabiq hakimi

**TURQAY HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cəbrayıl rayonunun keçmiş Maksim Qorki adına orta məktəbinin 1980-ci il 10a sinif məzunları sinif yoldaşları Ziyafət Qarayevaya qardaşı

**HACI İBRAHİM OĞLUNUN**

İmişlidə vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3722